# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

1
AVQUST
2019-cu il

№ 134 (4032)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ELMAN RÜSTƏMOVUN İLLİK İNFLYASİYA HƏDDİNƏ FƏRQLİ RƏQƏMLƏRİ - 4,2-dən SONRA 6 FAİZ...

■ səh. 7 ■

## Köçəryan Ermənistanda, bizim perspektivsiz radikallar isə Azərbaycanda hansısa «payız inqilabı»ndan danışmağa başlayıb

■ səh. 5 ■



Gələn ildən qaz gəlirlərimiz artacaq - Qarabağ probleminin həll prosesinə hansı təsirlər gözlənir...

■ səh. 3 ■

Radikal partiyalarda üzvlərin sayını artırmaq üçün düşünülmüş qəribə vəsiqə forması...

■ səh. 5 ■

Məşhur "Gəncə işi" çərçivəsində 16 nəfərin məhkəmə prosesi davam edir

■ səh. 4 ■

Bakının daşınmaz əmlak bazarında gözlənilməz bahalaşma başlayıb...

■ səh. 6 ■

ABŞ işğal olunmuş Qarabağa maliyyə yardımını dayandırır

■ səh. 2 ■

Banklar "istehlak kreditləri" adı altında soyğunçuluq kursundan bir addım da çəkilmək istəmir - 43 faiz hara, 3-5 faiz hara...

■ səh. 11 ■



**Ermənistanın 4 dövlət arasında sıxılıb qaldığını hətta Köçəryan da dilə gətirdi**

■ səh. 9 ■

**NATO - Rusiya qarşıdurmasında ən ağıllı siyasət aparan Qafqaz ölkəsinin kimliyi daha aydın görünür...**

■ səh. 8 ■



**Azərbaycan polisinin imici əleyhinə çeşidli təxribatlar son həftələrdə yenidən aktuallaşıb...**

■ səh. 3 ■

Qeyri-neft sektorumuz artım tempini bu il də saxladı - 15 faiz...

■ səh. 7 ■



Əhalimizin bank əmanətlərində 43 faiz azalma nə ilə bağlıdır...

■ səh. 11 ■



Bakının zibil qutuları - saysız problemlər mənbəyi: dezinfeksiya yox, quraşdırılma normaları yox...

■ səh. 12 ■



"AzCake" şirkəti qoğaldan çıxan mıx xəbərinə necə reaksiya verdi...

■ səh. 15 ■



Şou əhli rəsmi nikahsız molla kəbinlərini ekranlarda fırladır - nikahsız "kəbin qadağası" harda qaldı...

■ səh. 14 ■





## Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilib

İyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilib.

## ABŞ işğal olunmuş Qarabağa maliyyə yardımını dayandırır



**ABŞ administrasiyası işğal altındakı Qarabağ ərazisində minaların təmizlənməsi üzrə dəstəyini dayandırır.**

"Trend"in məlumatına görə, bu barədə Amerikanın Erməni Milli Komitəsinin "Twitter" səhifəsində yazılıb.

Qeyd olunur ki, bir müddət əvvəl ABŞ Nümayəndələr palatasının qəbul etdiyi maliyyələşmə barədə düzəlişə baxmayaraq, administrasiya maliyyə dəstəyini dayandırmağa çalışır: "Bu, USAID tərəfindən maliyyələşən proqramdır. Bu addım ciddi siyasi nəticələrə gətirib çıxaracaq".

## SOCAR Türkiyənin "Demirören" media qrupunda pay sahibi olması iddialarını təkzib etdi




**SOCAR-ın Türkiyənin "Demirören" media qrupunda pay sahibi olmaq fikirləri barədə Türkiyə KİV-lərində yayılmış məlumat həqiqətə uyğun deyil. Bu barədə "Trend"ə SOCAR-dan bildiriblər.**

Şirkətdən qeyd ediblər ki, sözügedən media qrupunda pay sahibi olmaq kimi bir plan mövcud deyil.

Qeyd edək ki, Türkiyə KİV-ləri SOCAR-ın "Demirören" media qrupunda pay əldə etmək fikrində olduğunu yazıb.

# Ermənilər daha bir sərhədçimizi yaraladı

**Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatları davam edir.**




Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən baki-xeber.com-a verilən məlumata görə, dünən saat 16:40-da döyüş mövqelərimiz düşmən tərəfindən atəşə tutulub. Düşmənin atəş nöqtələri cavab atəşilə susdurulub.

Atışma zamanı döyüş növbəsində xidmət aparan Dövlət Sərhəd Xidmətinin 1 hərbi qulluqçusu yaralanıb. Sərhədçiyə dərhal təxirəsalınmaz tibbi yardım göstərilib və hazırda həyatı üçün təhlükə yoxdur.

# UNESCO-nun Baş direktoru Azərbaycan hökumətinə təşəkkür edib

**UNESCO-nun Baş direktoru xanım Odre Azuley Azərbaycan Respublikası hökumətinə Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirilməsi ilə bağlı təşəkkür məktubu göndərib.**




Mədəniyyət Nazirliyindən "Trend"ə verilən məlumata görə, məktubda ölkəmizin UNESCO-nun bu nüfuzlu tədbirinə yüksək səviyyədə ev sahiblik etdiyi bildirilir və Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına hazırlıq prosesi, sessiyanın təşkili, iclasların effektiv idarə edilməsinə görə minnətdarlıq ifadə olunur.

Baş direktor Bakıya səfəri zamanı Qobustan qoruğunu ziyarət etməkdən zövq aldığını da xüsusi qeyd edir: "Mən şəxsən Qobustanın timsalında Azərbaycanın zəngin mədəni irsini kəşf etməkdən, Azərbaycan Hökumətinin və Mədəniyyət Nazirliyinin bu məkanın qorunub saxlanılmasında, təbliğində nümayiş etdirdiyi səylərə şahidlik etməkdən xüsusilə məmnun oldum".

Məktubda həmçinin Azərbaycan Respublikasının Mədəniyyət naziri 19 noyabr 2019-cu il tarixində UNESCO tərəfindən təşkil olunacaq Baş Konfransın 40-cı sessiyası öncəsi Mədəniyyət nazirləri Forumunda iştiraka dəvət olunur.

Baş direktorun məktubu bu fikirlərlə bitir: "Mən Bakını UNESCO və Azərbaycan arasında dinamik inkişaf edən münasibətlər fonunda tərk etdim və bu, məni çox məmnun etdi. Bir daha əmin oldum ki, Sizin dəstəyinizə daim etimad edə bilərəm".

UNESCO-nun Dünya İrs Mərkəzinin direktoru xanım Mextild Rossler də Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı Azərbaycan Hökumətinə təşəkkür məktubu göndərib. Məktubda ölkəmizin bu mötəbər tədbirə yüksək səviyyədə ev sahibliyi etməsi təqdir olunur. Qeyd edilir ki, Bakı sessiyasında gündəlikdə duran bir çox məsələlər zamanında və müvəffəqiyyətlə həllini tapıb. Xanım Rossler Dünya İrs Mərkəzindəki həmkarları adından iclasların yüksək səviyyəli təşkilinə görə Azərbaycan Hökumətinə, o cümlədən gündəlik planlaşdırmalara birbaşa cəlb olunan, UNESCO katibliyinə hər cür lazımi köməklik göstərən komandaya xüsusi minnətdarlığını ifadə edib: "Biz iclasların keçirildiyi möhtəşəm məkanı, göstərilən peşəkarlığı, heyətin alicənablığını, yüksək səviyyədə təşkil olunan xidməti, iclasların koordinasiyasını həyata keçirən şəxslərin isti münasibətini xüsusi qiymətləndiririk".

Dünya İrs Mərkəzinin direktoru məktubunda həmçinin Azərbaycanın Mədəniyyət naziri 27-28 noyabr tarixində UNESCO-nun Parisdəki mənzil-qərargahında keçiriləcək dünya irsi üzrə Konvensiyanın iştirakçısı olan dövlətlərin 22-ci ümumi iclasına dəvət edilib. Bildirilir ki, iclasda Ümumdünya İrs Komitəsi 43-cü sessiyasının sədrinin Komitənin fəaliyyəti ilə bağlı hesabatının dinlənilməsi nəzərdə tutulur.

Mextild Rossler məktubun sonunda bir daha davamlı əməkdaşlığa, dünya irsi üzrə Konvensiyanın həyata keçirilməsində göstərilən dəstəyə görə Azərbaycan Respublikası Hökumətinə minnətdarlığını bildirir.

Xatırladaq ki, 30 iyun - 10 iyul 2019-cu il tarixində Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirilib. Azərbaycan 2015-ci ildən Ümumdünya İrs Komitəsinin üzvüdür və 2019-cu ildə Komitəyə sədrliyi həyata keçirir. 43-cü sessiyanın iclaslarına Azərbaycan Respublikasının Mədəniyyət naziri sədrlik edib.

Sessiyada 180-dən çox ölkədən 2500-dən çox nümayəndə, o cümlədən nazirlər, yüksək səviyyəli rəsmilər, eləcə də beynəlxalq təşkilatların rəhbər və məsul şəxsləri iştirak edib.




# Rusiyalı politoloq Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinin modernləşdirilməsini tövsiyə edir

**Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinin modernləşdirilməsi lazımdır. "Trend"in məlumatına görə, bunu Azernews-a Rusiya İqtisad Universitetinin politologiya və sosiologiya kafedrasının dosenti Aleksandr Perenciyev deyib.**

O bildirib ki, modernləşmə iki qarşılıqlı yolla baş verməlidir:

"Birincisi, yol xəritəsi ilə birgə sənəd layihələrinin hazırlanması və onların reallaşdırılması üzrə konkret addımlardır. İlkin hüquqi akt - Dağlıq Qarabağ və ətraf yeddi rayonla bağlı münaqişənin nizamlanması Konsepsiyası və ya Strategiyası olmalıdır. Yekun sənəd isə Azərbaycanla Ermənistan arasında sərhəd barədə saziş olmalıdır".

Politoloq qeyd edib ki, ikinci yol danışıqlar infrastrukturunun qurulmasıdır. Onun sözlərinə görə, buraya ATƏT-in Minsk qrupu çərçivəsində Azərbaycan-Ermənistan birgə qrupunun yaradılması daxildir:

"İnfrastruktur, həmçinin iki ölkənin xarici işlər nazirləri müavinlərinin, xarici işlər nazirlərinin, baş qərargah rəislərinin, müdafiə nazirlərinin xətti ilə daimi əlaqəni ehtiva etməlidir.

**Bundan başqa, məşvərətlər parlamentlər xətti ilə aparılmalıdır. Hesab edirəm ki, danışıqlar prosesinin səmərəliliyinin artırılması üçün Dağlıq Qarabağın erməni və azərbaycanlı icmasının da dialoqu təşkil olunmalıdır".**

# Azərbaycan polisinin imici əleyhinə çeşidli təxribatlar son həftələrdə yenidən aktuallaşıb...

## *Mehman Muradlı: "Bunun başqa bir səbəbi isə ölkədəki stabilliyi pozmaq cəhdləri ilə bağlıdır"*

**Son günlər Daxili İşlər Nazirliyinə qarşı bəzi təxribat xarakterli hərəkətlərin edildiyi və bu yöndə məlumatların yayıldığının şahidi oluruq. Bir neçə gün əvvəl guya polisdəki haqsızlıqlardan danışan bir əməkdaşın videosu sosial şəbəkələrdə geniş paylaşılıb. Araşdırdıqda məlum olub ki, həmin şəxsin hazırda polis orqanları ilə heç bir əlaqəsi yoxdur və 2013-cü ildə işdən azad edilib.**




Bundan əlavə, 22 iyul - Milli Mətbuat Günü özlərini müstəqil jurnalist adlandıran bir qrup şəxs Daxili İşlər Nazirliyinin qarşısında aksiya keçirməyə cəhd edib. Həmin vaxt DİN-dən verilən məlumatda bildirilirdi ki, polis əməkdaşları tərəfindən bu cəhdin qarşısı alınıb və aparılmış profilaktik söhbətlərdən sonra həmin şəxslər ərazidən uzaqlaşıblar.

Bildirilib ki, onlar analoji hərəkətlərini Mətbuat Şurasının inzibati binasının qarşısında da təkrarlamağa çalışıblar, lakin ərazidə xidmət aparan polis əməkdaşları tərəfindən görülmüş tədbirlərlə ictimai asayişin və hüquq qaydasının kobud şəkildə pozulmasına yol verilməyib.

Həmin hadisənin fəal iştirakçılarından olan, xırda xuliqanlıq etmiş bir nəfər saxlanaraq, Nərimanov Rayon Polis İdarəsinin 16-cı Polis Bölməsinə aparılıb, orada fərdi söhbətdən və rəsmi xəbərdarlıq edilməsindən sonra sərbəst buraxılıb.

Polisin imicinə qarşı müəyyən təxribatçı addımların atılması nə ilə bağlıdır?

Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə halların bir qədər intensivləşməsi müşahidə olunur: "Bilirsiniz ki, Azərbaycan polisi olduqca şərəfli bir yol keçib. Müstəqilliyimizdən sonra ölkəmizdə sabitliyin qorunması, asayişin bərpası istiqamətində ciddi uğurlara imza atıb. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünyanın ən stabil ölkələrindən biridir. Bütün bu nailiyyətlər polisin gərgin əməyi sayəsində mümkün olur. Azərbaycan polisi həm də ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə böyük mərdlik göstərib. Çoxlu sayda polis əməkdaşı şəhid və əlil olub. Azərbaycan polisini hər zaman gözdən salmağa çalışıblar. Belə cəhdləri biz görmüşük. Amma onların heç biri öz məntiqi sonluğuna çatmayıb. Konkret olaraq son günlərdə belə hallara daha çox rast gəlinməsinin birinci səbəbini DİN-də baş verən kadr dəyişikliyi ilə əlaqələndirə bilərəm. Bilirsiniz ki, uzun müddət Azərbaycan polisinə şərəflə xidmət etmiş hörmətli Ramil Usubovun yerinə həmin vəzifəyə cənab Vilayət Eyvazov təyin edildi. Ola bilər ki, müəyyən qüvvələr bəzi təxribatçı addımları ilə polisin ayıq-sayıqlığını yoxlamaq istəyirlər. Amma unudurlar ki, polisə rəhbərliyi yad adam etmir. Uzun illər onun idarəetməsində yaxından iştirak etmiş və böyük təcrübə qazanmış rəhbərlik əvvəlki qaydada öz işinin öhdəsindən məharətlə gəlir və gələcək. Bunun başqa bir səbəbi isə ölkədəki stabilliyi pozmaq cəhdləri ilə bağlıdır. Görürsünüz ki, bəzi radikal dairələr kütləvi itaətsizliklə bağlı təbliğat aparırlar.

*"Polisin imicinə ləkə yaxmaqla onlara qarşı inamsızlıq toxumunu səpmək istəyirlər"*

Onlar bilirlər ki, qarşılarında Azərbaycan polisini görəcəklər. Bu səbəbdən də polisin imicinə ləkə yaxmaqla, onlara qarşı inamsızlıq toxumunu səpmək istəyirlər. Amma bu cəhdlərin hamısı əbəsdir. Çünki Azərbaycan polisi bundan sonra da öz dövlətinin keşiyində möhkəm dayanacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Gələn ildən qaz gəlirlərimiz artacaq - Qarabağ probleminin həll prosesinə hansı təsirlər gözlənir...

## *Elşən Həsənov: "Bizim rifahımız yaxşı olduqca düşmənlə mübarizəni də sistemli, keyfiyyətli və daha əzmkar səviyyədə apara bilirik"*

**Azərbaycan iqtisadiyyatının ixrac imkanlarının artması qarşıdakı illərdə ölkəmizə valyuta daxilolmalarının artacağından xəbər verir. TANAP-ın ardınca TAP layihəsinin də işə düşməsi sayəsində qaz ixracı artacaq və bu məhsulun satışından əldə edilən gəlir xeyli yüksələcək.**




Ötən il qaz ixracından 1,5 milyard dollar gəlir əldə edilib. Bu ilin ilk yarısında ixrac edilən qazın dəyəri artıq 1,05 milyard dolları ötüb, proqnoza görə, ilin sonunda 2 milyard dollar həddini keçəcək. 2020-ci ildə qaz ixracından gəlirimiz bir qədər də artacaq. Hazırda 6 milyard kubmetr olan qaz ixracı 2020-2021-ci illərdə 16 milyard kubmetri ötəcək.

Dünya Bankının proqnozuna əsasən, təbii qaz ixracının artması nəticəsində 2019-2021-ci illərdə iqtisadi artım orta hesabla 3,5% təşkil edəcək, Azərbaycandan kapital axını aşağı səviyyədə qalacaq. Göründüyü kimi, rəqəmlər bizə optimist göstəricilər vəd edir. Ölkəmizin iqtisadi göstəriciləri onsuz da yaxşıdır. Qaz sektorundan gəlirlərin artması bizə yalnız yaxşı nələrisə vəd edir. Büdcəmizə daxilolmaların artması Dağlıq Qarabağ probleminin həlli üçün yeni hansı imkanları aça bilər?

Ekspert Elşən Həsənov qəzetimizə bildirdi ki, Azərbaycan, faktiki olaraq, müharibə şəraitində yaşayır: "Bu, eyni zamanda, ciddi xərcin tələb olunduğu anlamına gəlir. Torpaqlarımızın işğal olunması və problemin hələ də həllini tapmaması bizi vadar edir ki, güclü ordu saxlayaq, ən müasir silahlarla ordumuzu təchiz edək. Təbii ki, bunların hamısı əlavə xərclərdir. Məsələyə iki aspektdən yanaşmaq olar: iqtisadi və siyasi. İqtisadi cəhətdən qaz gəlirlərinin artması rifahımız üçün gözəl gələcək vəd edir. Nəticədə ölkəyə valyuta girişi artır, əvəzində xaricə valyuta çıxışı azalar və ya sabit qalarsa, bu halda, milli valyutanın məzənnəsi möhkəmlənir. Əksinə, ölkədən valyuta çıxışı artırsa, əvəzində valyuta gəliri azalırsa, milli valyutanın məzənnə dəyəri aşağı düşür. 2015-ci ildə ardıcıl iki devalvasiyanın olmasının səbəbi də məhz ölkədən valyuta çıxışının gəlişindən çox olması ilə bağlı idi. Bilirsiniz ki, iqtisadiyyatla siyasət bir-birinə sıx bağlıdır. Bizim rifahımız yaxşı olduqca düşmənlə mübarizəni də sistemli, keyfiyyətli və daha əzmkar səviyyədə apara bilirik. Siyasi cəhətdən də bu, bizim problemimizin həllinə böyük töhfə verəcək. Çünki Azərbaycan dövlətinin ən dərin problemi Qarabağ məsələsidir. Maddi vəziyyətimiz artanda biz informasiya müharibəsini də daha səmərəli şəkildə apara bilirik. Bundan əlavə, qaz gəlirlərinin ölkəyə daxil olması həm də o anlama gəlir ki, artıq Avropanın enerji təhlükəsizliyinə töhfə verməyə başlayırıq. Həmin dairələr isə regionda təhlükəsizliyin ən yüksək səviyyədə olmasını istəyəcəklər. Bu da Dağlıq Qarabağ probleminə həssas və incə yanaşmanı ortaya qoyacaq. Eyni zamanda, Ermənistan qarşısında konstruktiv olmağa dair tələblər də artacaq. Bir sözlə, ölkəmizin daha da varlı olması bütün istiqamətlər kimi, Dağlıq Qarabağ probleminin həlli mexanizmlərinə də müsbət təsirini göstərmiş olacaq".

*"Ölkəmizin daha da varlı olması bütün istiqamətlər kimi, Dağlıq Qarabağ probleminin həlli mexanizmlərinə də müsbət təsirini göstərmiş olacaq"*

***Məhəmmədəli QƏRİBLİ***

# Məşhur "Gəncə işi" çərçivəsində 16 nəfərin məhkəmə prosesi davam edir

**Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin məlumatına görə, iyulun 31-də Baş Prokurorluqda prokurorluq orqanları tərəfindən 2019-cu ilin birinci yarımilində "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və bölgə müşavirələrində aparılmış müzakirələrin nəticələrinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.**

Müşavirədə Baş prokuror Zakir Qaralov çıxış edib. Bildirilib ki, hesabat dövründə istintaq və əməliyyat-axtarış fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə cinayət hadisələrinin sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 690 vahid artım olmaqla, ümumilikdə qeydə alınmış 13534 cinayətin 91,7 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olub, onların 88,5 faizini böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 11,5 faizini isə ağır və xüsusilə ağır cinayətlər təşkil edib.

Əməliyyat-axtarış və istintaq fəaliyyəti sahəsində görülmüş birgə tədbirlər nəticəsində hesabat dövründə cinayətlərin açılması 82,4% təşkil edib, həmçinin daxili işlər orqanları ilə birgə keçirilmiş tədbirlər nəticəsində əvvəlki illərdən bağlı qalmış 163 cinayətin açılması təmin edilib.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə hesabat dövründə qəsdən adam öldürmə, qəsdən sağlamlığa az ağır zərər vurma, mülkiyyət əleyhinə olan cinayətlər, yol-nəqliyyat hadisələri, habelə qəzalarda xəsarət alanların sayında artım, istintaq zamanı dövlətə, hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın ödənilməsində isə azalma müşahidə olunub.



Müşavirədə 2019-cu ilin birinci yarımilində Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində qeyri-aşkar şəraitdə törədilmiş bir sıra ağır, mürəkkəb və çoxepizodlu cinayət hadisələrinin, o cümlədən qəsdən adam öldürmə cinayətlərinin cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq keyfiyyətli istintaq edilməsi, cinayət törətmiş şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb edilmələri qeyd edilib, eyni zamanda respublikada ictimai rezonansa səbəb olmuş cinayət hadisələri üzrə 70 şəxs barəsində istintaq olunmuş 32 cinayət işininyekunlaşdırılaraq məhkəmələrə göndərildiyixüsusi vurğulanıb.

Belə ki, 3 iyul 2018-ci il tarixdə radikal dini baxışlara malik Yunis Səfərov və digərləri tərəfindən Gəncə şəhərində törədilmiş terror aktı, qəsdən adam öldürməyə cəhd, hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlər və sair faktlarla bağlı başlanmış cinayət işinin istintaqı peşəkarlıqla davam etdirilərək, ümumilikdə mütəşəkkil dəstənin 29 üzvünün Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbirlərinin seçilməsi təmin edilmiş, həmin şəxslərdən 11-i barəsində beynəlxalq axtarış elan olunub.

Bundan başqa, 10 iyul 2018-ci il tarixdə Gəncə şəhərində radikal dini yönümlü bir qrup şəxs tərəfindən zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaş törədilməsi, 2 polis əməkdaşının qəsdən öldürülməsi və sair faktlar üzrə başlanmış cinayət işinin istintaqı davam etdirilərək, iş üzrə 61 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində həbs qətimkan tədbiri seçilib, onlardan 1 nəfər axtarışda olduğu dövrdə polis əməkdaşları tərəfindən zərərsizləşdirilib, 1 nəfər barəsində isə axtarış tədbirləri davam etdirilir. Ümumilikdə 2018-ci ilin noyabr ayından etibarən iş üzrə cinayəti törətdikdən sonra ölmüş təqsirləndirilən şəxs də daxil olmaqla 60 nəfər barəsində 8 cinayət işinin istintaqı tamamlanaraq aidiyyəti üzrə baxılması üçün məhkəməyə göndərilib. 6 cinayət işi üzrə 44 şəxs barəsində ittiham hökmləri çıxarılaraq təqsirləndirilən şəxslər müxtəlif müddətlərə azadlıqdan məhrum etmə cəzalarına məhkum edilib, 16 nəfər barəsində 2 cinayət işi üzrə isə məhkəmə baxışı davam edir.

Qeyd edilib ki, 26 mart 2019-cu il tarixdə Bakı şəhərində yerləşən "Diqlas" ticarət mərkəzində ağır nəticələrə səbəb olan yanğın hadisəsinin baş verməsi faktı üzrə başlanmış cinayət işi üzrə prokurorluq, Daxili İşlər, Fövqəladə Hallar və Vergilər nazirliklərinin müstəntiqlərindən ibarət istintaq qrupu tərəfindən zəruri və təxirəsalınmaz istintaq tədbirlərinin icrası təmin edilib, binaya və sahibkarlara vurulmuş ziyanın həcminin, habelə cinayət təqibi ilə əlaqədar əhəmiyyət kəsb edən digər halların müəyyən edilməsi məqsədi ilə çoxsaylı ekspertizalar təyin edilib, yanğından maddi ziyan çəkmiş 400 nəfərdən artıq sahibkar istintaqa cəlb edilərək dindirilib, həyata keçirilmiş istintaq tədbirləri ilə 129 nəfər sahibkara 1 milyon 91 min manat məbləğində pul vəsaiti ödənilib.

Xüsusilə vurğulanıb ki, baş vermiş hadisə ölkə rəhbərliyi tərəfindən nəzarətdə saxlanılmaqla, ümumilikdə yanğından maddi zərər çəkmiş 371 sahibkara 2 milyon 155 min manat məbləğində dövlət tərəfindən kompensasiya ödənilib.

Bildirilib ki, korrupsiya cinayətlərinə qarşı mübarizənin tam yeni müstəviyə qaldırılması prokurorluq orqanlarının qarşısında duran ən əsas vəzifələrdən biridir. Prezident İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına reallaşdırılan dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq, ötən dövrlərdə olduğu kimi, 2019-cu ilin birinci yarısında da korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri uğurla davam etdirilib.

Korrupsiya hallarına qarşı mübarizə işinin düzgün təşkilində 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinin əhəmiyyəti qeyd olunmuşdur. Baş idarə tərəfindən vətəndaşları ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının yayıldığı idarəçilik və xidmət sahələrinin aşkar edilməsi, təqsirli şəxslərin ifşa edilməsi, korrupsiya hüquqpozmalarından əziyyət çəkən vətəndaşların hüquqlarının bərpa edilməsi məqsədi ilə vətəndaşlardan "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlər üzrə təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilib. Belə ki, mərkəzə hesabat dövründə 1986 müraciət daxil olub, həmin müraciətlərin 9-u üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb, eləcə də digər müraciətlər üzrə qanunvericiliyə müvafiq tədbirlərin görülməsi təmin edilib.

Dövr ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin məntiqi nəticəsi olaraq ölkəmizin Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) və MONEYVAL Komitəsi, eləcə də digər beynəlxalq təşkilatlarla əməkdaşlığı uğurla davam etdirilib.

Rüşvətlə bağlı, vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma, qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və ya israf etmə, qulluq mövqeyindən istifadə etməklə dələduzluq, vəzifə saxtakarlığı və sair faktlar üzrə 316 şəxs barəsində 187 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 45 milyon 568 min manat ziyandan istintaq müddətində 14 milyon 997 min manatın ödətdirilməsi təmin olunub, qalan ziyanın ödətdirilməsi məqsədi ilə qanunla nəzərdə tutulmuş tədbirlər görülüb.

**Müşavirədə 2019-cu ilin birinci yarısında prokurorluq orqanları tərəfindən görülmüş işlər və bu məsələnin bölgə müşavirələrində müzakirəsinin nəticələri barədə Baş prokurorun birinci müavini Rüstəm Usubov məruzə edib. Müzakirələrdə çıxış edən Baş Prokurorluğun İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Murad Dadaşov, Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin rəisi Eldar Əhmədov və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin rəisi Nemət Əvəzov "Elektron cinayət" proqramının tətbiqi ilə bağlı tapşırıqların icrası istiqamətində görülən işlər barədə müşavirə iştirakçılarına ətraflı məlumat veriblər.**

***Baki-xeber.com***

**Ermənistanın eks-prezidenti Robert Köçəryan verdiyi son müsahibədə deyib ki, Ermənistan hökuməti uzun müddət hakimiyyətdə qala bilməyəcək. Onun sözlərinə görə, hakimiyyət məsələsi istənilən halda küçədə - növbədənkənar parlament seçkisində həll ediləcək:**

# Köçəryan Ermənistanda, bizim perspektivsiz radikallar isə Azərbaycanda hansısa "payız inqilabı"ndan danışmağa başlayıb

## *Elçin Mirzəbəyli: "Biz də həmin cücələri payızda sayacağıq"*



"Bu cür idarəetmə keyfiyyəti ilə bu hakimiyyət uzun müddət dayana bilməyəcək və yenidən seçilmə perspektivi yoxdur. Seçici populistlərdən boğaza yığılacaq və öz seçimində daha diqqətli olacaq".

O, müxalifətin birləşmə ehtimalının çox olduğunu, amma vahid müxalifət mərkəzinin dərhal yaranmayacağını deyib: "Bu proseslərdə mən vacib, amma yegana olmayan həlqə olacağam. Ölkəyə sağlam qüvvələrin geniş konsolidasiyası lazımdır. Bu proses mütləq parlament müxalifətinin radikallaşmasına gətirib çıxaracaq, əks təqdirdə onlar elektoratlarını itirəcəklər. Müxalifətin konsolidasiya prosesi payızda bitəcək, siyasi mübarizə isə sistemli və miqyaslı xarakter daşıyacaq".

Çox maraqlıdır ki, Azərbaycanda olan bəzi radikal qüvvələr də "Bir payız axşamı" anonsunu verirlər. Onların iddialarına görə, guya Azərbaycanda da payızda inqilab gözlənilə bilər. Bu cür absurd fikirləri daha çox təbliğ edən isə xaricə sığınaraq internet üzərindən fəaliyyət göstərən Qurban Məmmədovdur. Payızda hakimiyyətin dəyişəcəyi ilə bağlı bizdəki radikal dairələrin fikirləri tam olaraq Köçəryanın mövqeyi ilə üst-üstə düşür. Hər iki tərəf ölkəsində dəyişikliyin baş verəcəyinə dair konkret vaxt göstərir. Bu həm də o anlama gələ bilərmi ki, hər iki qüvvə eyni mərkəzdən idarə edilir?

Politoloq Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Köçəryanla bizim radikal düşərgə təmsilçilərinin və xaricdəki bəzi mühacirlərin fikirlərinin üst-üstə düşməsi təsadüfi deyil: "Köçəryan necə Azərbaycan xalqına və dövlətinə qarşı açıq nifrət bəsləyirsə, bunlar da xalqımıza qarşı mənəvi terror həyata keçirirlər. Sadəcə, bir fərqləri var ki, arada insan ölümü faktoru yoxdur. Amma dövlətə və xalqa qarşı aparılan mənəvi terror, əslində, insan ölümündən daha ağır cinayətdir. Çünki onun vurduğu fəsadlar heç vaxt yaddan çıxmır. Bizimkilər də payızla bağlı müəyyən proqnoz verirlər. Buna Azərbaycanda yaxşı bir atalar sözü ilə cavab verə bilərik: cücəni payızda sayarlar. Biz də həmin cücələri payızda sayacağıq. Düşünürəm ki, həmin dairələr bu günə qədər düşərgə təfəkküründən uzağa getməyiblərsə, boş beyinləri ilə olduqları yerdə də qalacaqlar. Yalnız absurd bəyanatlar, proqnozlar verməklə falçılıqla məşğul olacaqlar. Toplum Azərbaycanda və onun ətrafında nəyin baş verdiyinin fərqindədir. Biz ölkənin maraqlarının nədən ibarət olduğunu yaxşı bilirik. Azərbaycanın təhlükəsizliyinin, ölkədəki sabitliyin qorunmasının nə qədər vacib olduğuni anlayırıq. Dövlətimizə qarşı məkrli niyyətlər həyata keçirən qüvvələr heç vaxt istəklərinə nail ola bilməyəcəklər. Buna qətiyyən şübhəmiz yoxdur. Nə payızda, nə da başqa vaxt onların reallaşdırmaq istədikləri işləri baş tutmayacaq. Arzuları ürəklərində qalmış olacaq".

*"Dövlətimizə qarşı məkrli niyyətlər həyata keçirən qüvvələr heç vaxt istəklərinə nail ola bilməyəcəklər"*

***Məhəmmədəli QƏRİBLİ***

**Ölkədəki radikal mövqeli siyasi təşkilat və partiyalar, demək olar ki, bütün fəaliyyətlərini virtual aləm üzərinə köçürüblər. Əksəriyyətinin normal ofisi belə olmayan həmin təsisatlar orada yazırlar, orada oxuyurlar, oradan da dağılışıb gedirlər. Bir növ, virtual siyasi partiya modelini qururlar. Ancaq bəllidir ki, belə siyasi mübarizə metodu olmur.**

# Radikal partiyalarda üzvlərin sayını artırmaq üçün düşünülmüş qəribə vəsiqə forması...

## *Əhməd Şahidov: "Belə üsullarla üzvlərin sayını "artırmaq" sabun köpüyündən başqa nəsə deyil"*




Canlı təmaslar, mütəmadi görüşlərin baş tutmadığı hansısa təsisatın tez bir zamanda sıradan çıxa biləcəyi kimdəsə şübhə doğurmur. Sözügedən qəbildən olan partiyalar üzvlərinin sayını süni şəkildə şişirtməyi də bu üsulla həyata keçirirlər. Məsələn, görürük ki, partiya funksionerləri onların siyasi təşkilatına üzv olmaqla bağlı çağırış edirlər. Elə həmin çağırışın altında elektron ərizə formasının linkini paylaşırlar. Yəni istənilən şəxs ora girib anketi doldura bilər. Anketdə ad, soyad və təşkilata niyə üzv olmasının səbəbindən başqa nəsə soruşulmur. Həmin blankı dolduran və ya adından doldurulan şəxs partiyanın üzvü sayılır. Çox maraqlıdır ki, partiyalar bununla bağlı tez-tez hesabatlar da verirlər. Həmin virtual anketlərin sayına əsasən üzvlərinin sayının durmadan "artdığını" qeyd edirlər. Məntiqlə həmin prosesdə şəffaf olmayan məqamlar var. Yəni istənilən şəxs başqasının yerinə həmin anketi doldura bilər. Bunun təsdiqi üçün hansısa sənəd tələb edilmir. Partiyalarla üzvlüklə bağlı tətbiq edilən bu metodu nə dərəcədə obyektiv və şəffaf saymaq olar?

İnformasiya texnologiyaları üzrə mütəxəssis Əhməd Şahidov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, əslində, bu olduqca aktual məsələdir: "Dünyanın qloballaşan, innovativ texnologiyalarla ayaqlaşan zəmanəsində Azərbaycanın bəzi siyasi partiyaları guya həmin yeniliklərlə ayaqlaşdıqlarına dair rəy formalaşdırmağa çalışırlar. Əslində isə çox primitiv üsulla həm xalqı, həm də özlərini aldatmaqdan başqa nəsə etmirlər. Belə üsullarla üzvlərin sayını "artırmaq" sabun köpüyündən başqa nəsə deyil. Çünki istənilən şəxs başqa adlar yazmaqla anketi doldura bilər. Hətta məndə olan məlumata görə, bəzi partiyalarda xüsusi olaraq anket dolduran adamlar var. Fikir verirsinizsə, həmin məlumatlar heç bir üsulla yoxlanılmır. Ürəyin nə istəyir yaz, olursan partiyanın üzvü. Partiyanın üzvləri və tərəfdarlarının real sayı harada bilinə bilər? Seçkilərdə, onların keçirdiyi etiraz aksiyalarında. Biz son illər ərzində meydanda kütləvi izdihamın olduğunu görmürük. Onlayn anket isə saxtakarlıqdır. Bunu şəffaf etməyin yolu da var. Hər bir Azərbaycan vətəndaşının şəxsiyyətini təsdiq edən sənədin üstündə "fin kod" deyilən fərdi identifikasiya mövcuddur. Bu, hər bir vətəndaşa ayrıca verilir və 7 rəqəmdən ibarətdir. Anketlərə həmin "fin kod"u daxil etmək mümkün olsa, sonra vətəndaşın öz adına olan mobil nömrəsinə təsdiq mesajı göndərilsə, həmin kod vasitəsilə üzvlük təsdiqlənsə, bəlkə də buna ciddi yanaşmaq olardı. Bunların heç biri yoxdursa, deməli, ciddi göstərici deyil. Bir daha deyirəm, əgər həqiqətən onlar virtual anketlərə əsasən üzvlərinin sayının kəskin artdığını deyirlərsə, biz niyə bunu real mənzərədə görə bilmirik? Bunun həm də hüquqi bir əsası yoxdur. Bilirsiniz ki, partiya təkrar qeydiyyata alınanda onun üzvlərinin siyahısı və məlumatlar yazılı şəkildə blanklarda Ədliyyə Nazirliyinə göndərilir, orda yoxlanılır. Üzvlük belə olmalıdır. İnsan öz iradəsi ilə partiyaya gəlməlidir. Orada partiya funksionerləri onunla söhbət etməlidirlər. Bundan sonra ərizəsini təqdim etməlidir. Yalnız bundan sonra şəxs partiyaya üzv ola bilər".

*"Virtual anketlərə əsasən üzvlərinin sayının kəskin artdığını deyirlərsə, biz niyə bunu real mənzərədə görə bilmirik?"*

***Məhəmmədəli QƏRİBLİ***

# Bakının daşınmaz əmlak bazarında gözlənilməz bahalaşma başlayıb...

**Ölkənin daşınmaz əmlak bazarında son dövrlərdə özünü qabarıq şəkildə göstərən hallardan biri də qiymətlərin tədricən yüksəlməsi və bəzi istiqamətlər üzrə mövsümə uyğun olaraq belə enməməsidir. Araşdırmalar göstərir ki, ölkədə, xüsusən də paytaxt Bakıda təkrar mənzillərin qiyməti getdikcə bahalaşır.**

Yeni mənzillərin qiymətində isə artım bununla müqaisədə cüzidir. Bundan fərqli olaraq, həyət evlərinin qiymətində bahalaşma daha çox nəzərə çarpır. Təkcə iyul ayı ərzində həyət və bağ evlərinin qiymətində 6.11 faiz artım olub. Ekspertlər qeyd edir ki, artım mövsümi xarakter daşıyır. Belə ki, yay mövsümündə həyət və bağ evlərinə tələbat artır. Amma yuxarıda qeyd olunduğu kimi, daşınmaz əmlakın digər istiqamətləri üzrə də artım var.

Məsələ burasındadır ki, hər il yay aylarında əmlak bazarında qiymətlərdə ucuzlaşma müşahidə edilsə də, bu il bu nəzərə çarpmayıb. Özü də bu o zaman baş verir ki, alqı-satqı əməliyyatlarının dinamikasında zəifləmə müşahidə edilir. Xüsusən də mənzillərin nağd alışında xeyli azalma var. Eyni zamanda ipoteka ilə alqı-satqıya cəlb olunan əmlakların sayı da xeyli aşağı düşüb. Buna baxmayaraq, qiymətlər ucuzlaşmır. Ekspertlər hesab edir ki, bu daha çox ilkin bazarın təsiri ilə bağlıdır.



Təhlillərə görə, ilkin mənzil bazarında qiymətlər ucuz olmasa da, tətbiq olunan yeni qaydalara görə artıq ilkin mənzil bazarında qiymət artımına təsir göstərən amillərin sayı artıb. Məsələn, əvvəllər 15-20 sot torpaqda çoxmənzilli bina tikmək mümkün idisə, indi artıq torpaq sahəsinin həcmi binanın yerləşdiyi sahədən 3 dəfə artıq olmalıdır. Bu da torpağın alınması zamanı binanın xərclərinin artmasına gətirib çıxarır. Eyni zamanda, qəbul edilmiş digər inzibati qərarlar da yeni tikililərdə tikinti xərclərinin artmasına gətirib çıxarıb. Əmlak eksperti Ramil Osmanlı bu xüsusda bildirir: "Keçən il tikintiyə icazəni icra hakimiyyəti verirdisə, indi artıq Arxitektura və Şəhərsalma Komitəsi bu prosesə bilavasitə nəzarət edir. Komitənin rəyi olmadan icazənin verilməsi mümkün deyil. Komitə qanunvericiliyə dəyişikliklərlə bağlı təşəbbüs etdi və bu qaydalar dəyişdi. Məsələn, əvvəl hər hansı bir tikinti şirkəti sadəcə binanın yerləşdiyi tikintialtı sahəni alıb, ora üçün sərəncam ala bilirdi. İndi artıq binanın yerləşəcəyi tikintialtı sahə də kifayət etmir. İndi həyətyanı sahə də nəzərə alınmalıdır. Qaydalara görə, indi həyətyanı sahə binanın alt tikinti sahəsindən 3 dəfə böyük olmalıdır". Bu durumda tikinti şirkətlərinin əksəriyyəti gözləmə mövqeyinə keçib. Bu hal da qiymətlərin yüksək həddə qalmasına təsir göstərən faktorlardan sayılır. Mütəxəssislərin fikrincə, tikinti sektorunda olan ləngimə mənzil bazarında qiymətlərə hələ bir müddət də təsirsiz ötüşməyəcək. Çünki qaydaların sərtləşdirilməsi ilə yeni çoxmənzilli binaların tikilməsi sahibkarlara ucuz başa gəlməyəcək. Bu da mənzil bazarında qiymətlərin bahalaşmasına səbəb olan faktorlardan sayılır.

Qiymətlərin yüksəlməsinə digər amillər də təsir edir. Belə ki, bu gün mənzil bazarında qiymət dəyişmələri həm də ilkin bazarda baş verən proseslərə söykənir. Söhbət ondan gedir ki, bazarda sahibkarlar, mənzil tikinti şirkətinin rəhbərləri qiyməti artırır. Ərazi üzrə yerləşən köhnə binalarda da buna uyğun olaraq mülkiyyətçilər tərəfindən qiymətin artımına təşəbbüs olur və qiymət artımı baş verir. Bu da təbiidir. Çünki köhnə binada yaşayan vətəndaşlar həm də yeni binanın potensial alıcısıdır və onu satıb yeni tikilidə həmin qiymətə uyğun mənzil almaq istəyir. Təbii ki, bu səbəbdən köhnə binalarda da qiymət artımı baş verir. Ekspertlər hesab edir ki, real şəraitdə tələb yoxdursa və təklif yüksəkdirsə, qiymət azalmırsa, bu formada yalnız inzibati qaydada qiymət artımının qarşını almaq olar. Lakin inzibati qaydada bazara müdaxilə yoxdur. Bu mənada, qiymətlərin aşağı düşməsi real görünmür.

Mənzillərlə yanaşı, torpaq bazarında da qiymətlərin artımı qeydə alınır. Ramil Osmanlı da bu faktı təsdiqləyir və bildirir ki, torpaq bazarındakı qiymət artımı mövsümlə əlaqədardır: "Ümumiyyətlə, son dövrlər əmlak bazarında artım dinamikası müşahidə olunur. Bu özünü həm torpaq sahələrində, həm də digər daşınmaz əmlak subyektlərində göstərir. Müsbət təsir edən səbəblərdən biri makroiqtisadi vəziyyətin müsbətə doğru dəyişməsidir. Torpaq bazarındakı artımlar daha çox mövsümlə əlaqədar olduğu üçün, yəqin ki, bir müddət sonra regionlara doğru istiqamətlənəcək və Bakıda proses stabilləşəcək".

Bahalaşma özünü kirayə sektorunda da göstərir. Maraqlıdır ki, hər il yay aylarında kirayə mənzil bazarında qiymətlər ucuzlaşsa da, bu il ciddi bir qiymət enməsi müşahidə edilmir. Bundan əvvəlki illərdə iyulun əvvəllərində kirayə mənzil bazarında 15-20% qiymət azalması müşahidə edilsə də, hazırda vəziyyət dəyişib. Halbuki, əvvəllər bazarda təklifin artması, tələbin azalması və tədris mövsümünün başa çatması ilə əlaqədar iyulun əvvəllərində kirayə mənzil bazarında ucuzlaşma müşahidə edilirdi. Amma indi təkcə iyul ayında kirayə bazarında 4%-ə qədər bahalaşma qeydə alındı. Əvvəlki illərdə isə qiymətlər avqustun sonu, sentyabrın birinci yarısından etibarən artmağa başlayırdı.

Bu müddətdə paytaxta tələbələrin axını başlayırdı. Amma indi vəziyyət dəyişib və sentyabrda kirayə qiymətlərinin daha yüksək olması gözlənir. Ekspertlərə görə, qiymət artımının əsas səbəbi kirayə bazarında təklifin azalmasıdır. Hazırda qiymətlər kirayə təklif edilən mənzilin yerləşdiyi ərazidən asılı olaraq 250 manatdan başlayaraq 550-600 manata qədər dəyişir.

**Məsələn, şəhərin mərkəzi hissələrində 2 otaqlı mənzillərin kirayəsi 350-400 manata, 3 otaqlılar isə 500-600 manata təklif edilir. Nisbətən kənar hissələrdə isə 2 otaqlı mənzillərin qiyməti 250-300 manat, 3 otaqlılar isə 350-400 manat civarında dəyişir. Avqustun sonu, sentyabrın birinci yarısından etibarən isə bu qiymətlərin bir qədər də yüksəlməsi proqnozlaşdırılır.**

***Tahir TAĞIYEV***

# Elman Rüstəmovun illik inflyasiya həddinə fərqli rəqəmləri - 4,2-dən sonra 6 faiz...

**Azərbaycan Mərkəzi Bankı inflyasiya ilə bağlı proqnozunu dəyişib. MB ilin sonunda inflyasiyanın 6 faizədək yüksələcəyini proqnozlaşdırır. Bundan əvvəl inflyasiyanın ilin sonuna qədər 4,2 faiz olacağı açıqlanıb.**





***Fikrət Yusifov:*** *"Dövriyyəyə əlavə pul kütləsinin buraxılması, istər-istəməz, inflyasiyanı şərtləndirən əsas amillərdən biridir"*

Bankın proqnozunda inflyasiya səviyyəsinə başlıca təsir kimi ərzaq qiymətlərinin artımı göstərilir: "Dəqiqləşdirilmiş proqnozlara görə, cari ilin sonuna qədər inflyasiyanın hədəf diapazonunda (4±2 faiz) olacağı, lakin daxili tələbin genişlənməsilə bağlı ilin sonuna onun hədəf intervalının yuxarı hissəsində formalaşacağı gözlənir".

MB-nin yaydığı məlumatda qeyd edilir ki, İdarə Heyətinin monetar siyasətə həsr olunmuş axırıncı toplantısından sonra mövsümi amillərin təsiri ilə deflyasiya qeydə alınıb, qiymətlərin ümumi səviyyəsi iyunda 0.5 faiz aşağı düşüb. 12 aylıq inflyasiya hədəf diapozonunun mərkəzindən aşağıda olmaqla 2.9 faiz təşkil edib. Ümumiyyətlə, inflyasiya səviyyəsinə başlıca təsiri ərzaq qiymətlərinin artımı (4.3 faiz) göstərir. Tərəvəz məhsullarının, aksizli malların qiymət artımları ərzaq inflyasiyasının səviyyəsini şərtləndirən başlıca amillərdir. Qeyri-ərzaq (1.3 faiz) və xidmətlər üzrə illik qiymət artımı (2.3 faiz) inflyasiya hədəfi diapozonunun mərkəzindən aşağıda formalaşıb.

Məcmu tələbin genişlənməsi şəraitində antiinflyasion monetar şərait, habelə ikitərəfli və çoxtərəfli məzənnələrin dinamikası inflyasiya təzyiqini səngidir. Bununla belə, aparılmış təhlillər inflyasiya gözləntilərinin həssas və asimmetrik olduğunu göstərir.

Maraqlıdır, bəs ekspertlər inflyasiya ilə bağlı MB-nin proqnozunun dəyişməsini necə dəyərləndirirlər?

*"Əməkhaqqı artmamışdan əvvəl məhsulun qiymətini artırmaq yersizdir və əhalinin cibinə girmək deməkdir"*

Sözügedən məsələyə aydınlıq gətirən iqtisad elmləri doktoru Fikrət Yusifov bunu bir sıra amillərlə əlaqələndirdi: "Mərkəzi Bankın inflyasiya proqnozlarının dəyişməsi müəyyən səbəblərlə bağlıdır. Bu, ilk növbədə, sosial artımlarla bağlıdır. Çünki sentyabr ayından etibarən bir sıra kateqoriyaya aid işçilərin əməkhaqları artacaq. Təbii ki, bu zaman dövriyyəyə əlavə pul kütləsinin buraxılması, istər-istəməz, inflyasiyanı şərtləndirən əsas amillərdən biridir. Ona görə də sentyabrdan sonra daxil olan vəsait inflyasiya ilə bağlı əvvəlki proqnozlaşdırılan göstəricinin müəyyən qədər dəyişməsinə yol açacaq. Bu baxımdan hesab edirəm ki, proqnozun dəyişməsi gözlənilən idi. Yəni burada qeyri-adi bir şey yoxdur. Ona görə ki, adətən əməkhaqları artarkən qiymətlərdə də dəyişiklik baş verir. Digər tərəfdən, hələ sentyabr ayına bir neçə ay qalmış bəzi işbazlar müəyyən məhsulların qiymətini artırdılar. Təbii ki, bütün bunlara ciddi nəzarət olunmalıdır. Əməkhaqqı artmamışdan əvvəl məhsulun qiymətini artırmaq yersizdir və əhalinin cibinə girmək deməkdir".

***Vidadi ORDAHALLI***

# Qeyri-neft sektorumuz artım tempini bu il də saxladı - 15 faiz...

**2019-cu ilin yanvar-iyun ayları ərzində Azərbaycandan ixracat 9,98 milyard dollar təşkil edib. İxrac ötən ilin müvafiq dövrünə nisbətən 1,3 milyard dollar və ya 15 faiz artıb. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-iyun ayları ərzində qeyri-neft sektoru üzrə ixrac 127 milyon dollar və ya 15 faiz artıb.**



***Ruslan Atakişiyev:*** *"2016-cı ildə ölkə iqtisadiyyatının inkişafı ilə bağlı Yol Xəritəsi təsdiq olundu və qeyri-neft sektorunun inkişafı prioritet bir sferaya çevrildi"*

Bu ilin ilk yarısında Rusiyaya 355 milyon, Türkiyəyə 213,3 milyon, Gürcüstana 85,4 milyon, İsveçrəyə 73,5 milyon və İtaliyaya 30,5 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

Bütövlükdə, 2019-cu ilin birinci yarımilliyi ərzində meyvə-tərəvəz ixracı 318 milyon 400 min, plastmas və onlardan hazırlanan məmulatların ixracı 103 milyon 300 min, pambıq lifi ixracı 75 milyon 700 min, elektrik enerjisinin ixracı 51 milyon 900 min, alüminium və ondan hazırlanan məmulatların ixracı 46 milyon 700 min, kimya sənayesi məhsullarının ixracı 45 milyon 600 min, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 30 milyon, pambıq ipliyi ixracı 14 milyon 600 min, alkoqollu və alkoqolsuz içkilərin ixracı 15 milyon 500 min dollar təşkil edib. İyun ayında isə qeyri-neft sektoru üzrə ixrac 192 milyon dollar təşkil edib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 13 milyon dollar və ya 7 faiz artım deməkdir.

Görünən odur ki, qeyri-neft ixracında artım tendensiyası ilbəil davam edir. Ümumilikdə, bunu ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyev, ümumən, buna müsbət yanaşdı: "2016-cı ildə ölkə iqtisadiyyatının inkişafı ilə bağlı Yol Xəritəsi təsdiq olundu və qeyri-neft sektorunun inkişafı prioritet bir sferaya çevrildi. Bununla bağlı olaraq bir sıra tədbirlər həyata keçirildi. Məlum olduğu kimi, son dövrlər Azərbaycanda istehsal olunan məhsulların dünyada tanıdılması ilə bağlı bir sıra silsilə xarakterli tədbirlər görülür. Öz növbəsində, bu kimi məsələlər qeyri-neft ixracına stimul verir. Bir sıra dünya ölkələrində Azərbaycanın ticarət evləri açılır. Azərbaycan istehsalı olan məhsulların sərgisi keçirilir. Bütün bunlar, istər-istəməz, ixraca müsbət təsir göstərir.

*"İxracın səviyyəsi bundan qat-qat çox olmalıdır"*

Bununla yanaşı, bizim əsas iqtisadi tərəfdaşımız olan Rusiya Federasiyası ilə iqtisadi əlaqələr genişlənir. Azərbaycanın kənd təsərrüfatı məhsulları asan şəkildə Rusiya bazarına ixrac olunur. Əvvəllər sərhəddə bir sıra problemlər yaşanırdısa, artıq bununla bağlı məsələlər yoluna qoyulub.

**Sözügedən proseslər ixraca müsbət təsir göstərir. Ancaq ümumilikdə götürdükdə Azərbaycanın qeyri-neft sektorunda potensialını nəzərə alsaq, görüləsi işlər çoxdur. İxracın səviyyəsi bundan qat-qat çox olmalıdır".**

***Vidadi ORDAHALLI***

# NATO - Rusiya qarşıdurmasında ən ağıllı siyasət aparan Qafqaz ölkəsinin kimliyi daha aydın görünür...

*Bakı Tiflis və İrəvanla müqayisədə regionda ən əlverişli mövqe sahibidir*

**ABŞ və Rusiyanın Qafqaz uğrunda savaşı yenidən özünün kəskin mərhələsinə qədəm qoyur. Bu dəfə böyük güclər özlərini Qafqazın iki ölkəsində - Gürcüstan və Ermənistanda sınayır. Azərbaycana gəldikdə, tərəflər Bakı ilə eyni səviyyəli əməkdaşlıqda maraqlıdır. Çünki Bakı həm Moskva, həm də Vaşinqtonla bərabərsəviyyəli əməkdaşlıq həyata keçirir.**

İndiyə qədər isə Azərbaycanı təsir altına almaq cəhdi əks effekt verib. Elə bu səbəbdən Azərbaycanın neytral siyasətini ABŞ da, Rusiya da qəbul etməli olub.

Bundan başqa, onlara bəllidir ki, Azərbaycanın mübarizə aparılan əraziyə çevrilməsi də qeyri-mümkündür. Elə bu səbəbdən böyük güclər həm Azərbaycanla eyni səviyyədə əməkdaşğıla üstünlük verir, həm də öz aralırnda yaranan mübahisələrin çözülməsi üçün dialoq məkanı olaraq adətən Bakını seçirlər. Azərbaycan paytaxtında Rusiya və NATO generallarının çoxsaylı görüşləri də bunun təsdiqidir. Amma qonşularımıza gəlincə, burada vəziyyət fərqlidir. Gürcüstan və Ermənistan, faktiki olaraq, ABŞ və Rusiya üçün Qafqazda əsas poliqona çevrilib. Ermənistan hələlik siyasi müstəvidə daha çox çəkişmə meydanını xatırladır. Amma ABŞ buradan artıq Rusiya hərbi bazalarının çıxarılmasını istəyir və bu istiqamətdə atılan addımlar Ermənistanın həm də hərbi poliqona çevrilə biləcəyini istisna etmir.

Gürcüstana gəlincə, burada vəziyyət daha mürəkkəbdir. Rusiya xarici işlər naziri Sergey Lavrov bildirir ki, Qərb ölkələri ABŞ-ın rəhbərliyi altında Gürcüstanı Rusiyadan qoparmağa cəhd edir. O, Moskvanın heç vaxt Tiflislə münasibətlərini pisləşdirməyə çalışmadığını bildirib: "Bir daha təkrar edirəm ki, hazırda baş verən hər şey bizim Qərbdəki həmkarlarımız, ilk növbədə isə ABŞ-ın qonşularımızı Rusiyadan qoparmaq cəhdləri ucbatından yaranır". Belə bir vaxtda Moskvanın qəzəbinə yol açan daha bir məsələ Gürcüstanda NATO üzvü və tərəfdaşı olan 14 ölkədən hərbçilərin iştirakı ilə "Çevik Ruh 2019" beynəlxalq hərbi təlimlərinə start verilməsidir.



Artıq 9-cu dəfə baş tutan hərbi təlimlər Senaki 2-ci piyada Briqadası, Orfolo və Vaziani hərbi bazaları olmaqla üç müxtəlif ərazidə keçirilir.

Təlimlərdə NATO üzvü və tərəfdaşı ölkələr - ABŞ, Birləşmiş Krallıq, Latviya, Litva, Polşa, Norveç, Belçika, Bolqarıstan, Yunanıstan, Monteneqro, Rumıniya, Türkiyə, Ukrayna və Gürcüstandan 3000 hərbi qulluqçu iştirak edir. Qeyd edək ki, hərbi təlimlər avqustun 9-da başa çatacaq. ABŞ-ın təimlərin gedişində bölgəyə hərbi texnika cəmləşdirməsi isə Kremldə xüsusi qəzəblə qarşılanır. Hətta məlumata görə, ABŞ Hərbi Hava Qüvvələrinin patrul təyyarəsi olan "Boinq B-8 Poseydon" ilk dəfə Gürcüstana gəlib. Təyyarənin Qara dənizdə Gürcüstan sahil mühafizəsinin əməkdaşları ilə təlimdə iştirak etdiyi bildirilib.

Qeyd edək ki, "Boinq B-8 Poseydon" ABŞ-ın ən güclü təyyarələrindən sayılır. Bu təyyarə düşmənin sualtı qayıqlarını aşkarlayıb məhv etmək, kəşfiyyat aparmaq, gəmi əleyhinə və xilas əməliyyatlarında iştirak etmək üçün istifadə olunur. ABŞ-n bölgəyə sualtı qayıqlar göndəməsi də məlumdur. Vaşinqtonda qeyd edirlər ki, təhlükəsizlik sahəsində Gürcüstanla münasibətlər ABŞ-ın Cənubi Qafqaz siyasətində ən mürəkkəb elementidir. Vaşinqton, həmçinin, ölkənin NATO-ya üzv olmasına dəstək olacağını bəyan edib. ABŞ Gürcüstanın NATO üzvlüyündə qətiyyətlə israr edir və dəfələrlə Alyans Gürcüstanı inandırmağa çalışıb ki, təşkilatın qapıları onun üzünə həmişə açıqdır. Amma keçmiş SSRİ respublikalarının NATO-ya qoşulmasının qarşını almaq məqsədilə Rusiyanın müharibəyə başlamağa hazır olduğunu nümayiş etdirməsi məsələni qəlizləşdirir. Hər halda, 2008-ci ildə Gürcüstanla, 2014-cü ildə Ukrayna ilə baş verən savaşlar da bunun real təsdiqidir. Rus hərbi ekspert Aleksandr Xrolenko da qeyd edir ki, bu fonda yeni təlimlər gürcü tərəfinə baha başa gələ bilər: "Şimali Atlantika Alyansının Gürcüstanda keçirdiyi "Çevik Ruh 2019" təlimləri növbəti dəfə ABŞ-ın Gürcüstanı Rusiya ilə hərbi münaqişəyə itələdiyini nümayiş etdirir. Təlimlərin bəyan edilmiş məqsədi üzv ölkələr arasında birlikdə işləyə bilmək qabiliyyətini artırmaq, əməliyyatların planlaşdırılması və icrasında əməliyyat qabiliyyətlərinin gücləndirilməsidir. Daha əvvəl Gürcüstanın Müdafiə Nazirliyi qeyd etmişdi ki, birgə təlimlər Qara dəniz regionunda sabitlik və təhlükəsizlik mühitinin qorunmasına öz töhfəsini verəcək.

Əslində, "Çevik Ruh 2019" təlimləri ümumilikdə çiçəklənən dinc bölgədə sabitliyin pozulmasına xidmət edir. Təlimlərdə regional sabitliyin ciddi qarantı olan Azərbaycan, Rusiya kimi ölkələrin iştirak etməməsi təsadüfi deyil. ABŞ və Gürcüstanın da Qafqaz regionunda yeganə düşməni Rusiya və onun müttəfiqləridir. Bu fonda NATO-nun Gürcüstan dağlarında "çevik ruh"u son dərəcə qeyri-müəyyən görünür və hərbi oyunların bütün iştirakçıları üçün fəsadlarla nəticələnə bilər. Əslində isə Tiflisə "əzələ nümayişi" praktiki olaraq mövcud deyil: respublikanın qərbindən şərqinədək olan məsafə 400 kilometrə qədərdir, şimalından cənubuna qədər olan məsafə isə 200 kilometrə qədər. Poliqonlarının imkanları isə yalnız hərbi-polis əməliyyatlarını həyata keçirməyə imkan verə bilər.

Tiflisdə revanşist siyasət tərəfdarları reallıqdan kənara çıxa bilməzlər. "Üsyançı" gürcü qonşularının təhlükəsizliyi Rusiya Federasiyasının, başda nüvə silahları olmaqla, bütün iqtisadi və hərbi gücünə bağlıdır. "Çevik Ruh 2019" təlimlərinin iştirakçıları bu faktı nəzərə alırmı? Lazım gəldiyi təqdirdə Rusiya Federasiyası öz ərazisindən yüzlərlə kilometr uzaq məsafədə, məsələn, Suriyada terrorçularla mübarizədə gücünü effektiv şəkildə yönləndirməyi bacarır. Bir gün alyansın "əzələləri" Gürcüstanda Rusiya sərhədləri yaxınlığında keyfiyyət dəyişikliyinə uğrasa, "layiqli tərəfdaşlar" yalnız möcüzəvi xilasa ümid edə bilərlər. Rusiya dəfələrlə Gürcüstanın NATO-ya üzvlüyü ilə onunla yaxşı münasibətlərin bərpasının bir araya sığmadığını bəyan edib.

**Qərblə hərbi manevrlər Gürcüstan dövlətinin uçuruma qədərki addımlarıdır. Bir daha xatırladıram ki, 2008-ci ilin avqustunda Gürcüstana Birləşmiş Ştatlar kömək eləmədi". Bütün bunlar Gürcüstanın, eləcə də Ermənistanın vəziyyətinin daha kövrək həddə olduğunu aydın nümayiş etdirir. Eyni zamanda, bir daha bəlli olur ki, hazırda regionda ən əlverişli mövqe sahibi qismində Azərbaycan çıxış edir.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın 4 dövlət arasında sıxılıb qaldığını hətta Köçəryan da dilə gətirdi

**Xarici siyasət sahəsində Azərbaycanın atdığı addımlar bu gün dünya miqyasında Ermənistanın etibarsız tərəfdaş imicinin formalaşmasında mühüm rol oynamaqdadır. Məhz bundan irəli gəlir ki, regionda maraqlı olan qüvvələr üçün Azərbaycanla əməkdaşlıq ön planda yer aldığı halda, Ermənistan daha sürətlə arxa plana keçir.**

Bu fonda, xüsusən də son dövrlərdə ABŞ, Rusiya, İran kimi ölkələrin Ermənistana dəyişən münasibəti indi İrəvanda böyük həyəcanla qarşılanır.

Ermənistanın "168.am" qəzeti yazır ki, əvvəllər Ermənistanın yanında olduğu iddia edilən ABŞ, əslində bu gün tam fərqli mövqe nümayiş etdirir. Misal kimi qəzet yazır ki, Ermənistandan fərqli olaraq, bu il Donald Tramp administrasiyası təhlükəsizlik məqsədilə Azərbaycana edilən yardımın həcmini əhəmiyyətli dərəcədə artırıb. Nəşrə görə, ABŞ-ın Azərbaycana maliyyə yardımı Ermənistandan imtina edilməsi anlamına gəlir. Xatırladaq ki, ABŞ Müdafiə Nazirliyi tərəfindən həyata keçirilən "Tərəfdaşların imkanlarının möhkəmləndirilməsi" layihəsi çərçivəsində 2018-2019-cu maliyyə ili ərzində Azərbaycan Birləşmiş Ştatlardan 100 milyon dollardan artıq yardım alacaq. Artıq 2018-ci maliyyə ilində 58.6 milyon dollar alıb, 2019-cu maliyyə ili üçün isə 42.9 milyon dollar nəzərdə tutulur. Öncəki illərdə bu yardımların həcmi cəmi 3 milyon dollar təşkil edib. 2018-ci maliyyə ilində Ermənistan 4.2 milyon dollar hərbi yardım alıb, 2019-cu ildə isə bu yardımın həcminin 2.8 milyon, 2020-ci ildə 2.1 milyon dollar olması nəzərdə tutulur. Erməni ekspert Suren Sarkisyan bildirir ki, erməni lobbisinin işə qarışması belə hansısa nəticə vermir. Onun sözlərinə görə, yaranmış vəziyyət ABŞ üçün Azərbaycan və Ermənistanın əhəmiyyətini aydın surətdə meydana qoyur. Britaniyalı siyasi analitik Neyl Makfarleyn bildirir ki, erməni tərəfinin belə vəziyyətə düşməsi çoxsaylı faktorlarla bağlıdır. Onun sözlərinə görə, Azərbaycanın xarici siyasətində hissedilən dəyişikliklər öz nəticələrini verir. "Azərbaycan çoxvektorlu siyasət istiqamətində daha çox irəliləyir. Bu sahədə Ermənistanın KTMT-yə üzvlüyü və Rusiyanın maraqları, Rusiya Federasiyasının ABŞ münaqişəli əhval-ruhiyyəsini nəzərə almaqla Ermənistan-ABŞ, yaxud Ermənistan-Qərb sıx əməkdaşlığı müəyyən mənada məhdudlaşdırılıb. Qərbdə birmənalı olaraq qəbul edilməyən Suriyada Ermənistanın hərbi missiyası da Ermənistan üçün müəyyən problemlər yaradır".

Sabiq erməni deputat Aqvan Vardanyan da ölkəsinin xarici siyasətində yol verilən çoxsaylı qüsurlar üzündən indiki vəziyyətin yarandığını bildirir. O qeyd edir ki, Azərbaycan bu vəziyyətdən öz maraqları uğrunda məharətlə istifadə edir. Onun sözlərinə görə, bu durumda hakimiyyət suverenlik, müstəqil xarici siyasət haqqında danışsa da, reallıq tam fərqlidir: "Bundan irəli gəlir ki, parlament sədri ABŞ-da analitiklərlə görüşür və xahiş edərək deyir ki, İrana qarşı sanksiyaların tətbiq edilməsində ABŞ-ın bizə təzyiq göstərməsini istəməzdik. O qeyd edir ki, biz belə bir qiyməti ödəyə bilmərik. Bu, bədbəxt bir haldır. Hakimiyyətin davranış tərzini tənqid etməkdən başqa çıxış yolu yoxdur. Suverenlik bundan ibarətdir?! Ermənistanın birinci siması aylarla Rusiya prezidenti ilə 10 dəqiqəlik məzmunsuz görüşə səy göstərir. Budur suverenlik?!". Onun sözlərinə görə, Ermənistana bu gün ABŞ-da da, Rusiyada da heç də yaxşı münasibət bəslənilmir.

"Bir Ermənistan" partiyasının siyasi burosunun üzvü, enerji məsələləri üzrə ekspert Vahe Davtyan isə qeyd edir ki, məsələnin narahatlıq doğuran başqa bir tərəfi İran amilidir. O vurğulayır ki, Tehran üçün də İrəvan getdikcə arxa plana atılır. Bu xüsusda o, Azərbaycanın fəal iştirak etdiyi "Şimal-Cənub" nəqliyyat dəhlizini ölkəsi üçün zərbə olan yeni transmilli layihə kimi təqdim edir. Bildirir ki, bu layihə nəticəsində Ermənistan yenə də nəqliyyat dəhlizi olma gücünü itirmiş olacaq. Onun sözlərinə görə, Ermənistanın daxili siyasi məsələlərə baş qoşduğu bir vaxtda Bakı, Tehran və Moskva avqust ayında Soçidə keçiriləcək zirvə görüşünün gündəminə gətiriləcək Ermənistanın maraqlarına birbaşa zidd olan bir sıra layihələrə fəal hazırlıq görür: "Üçtərəfli görüşdə müzakirəsi ehtimal edilən layihələr Ermənistanın regional maraqlarına ziddir. Gündəmə iki xüsusi məsələnin çıxarılacağını ehtimal edirəm. Bunlardan biri "Şimal-Cənub" enerji dəhlizinin inşasıdır. Bu layihə ilə Azərbaycanın enerji sistemi vasitəsilə İran və Rusiya enerji sisteminin sinxronlaşdırılması nəzərdə tutulur. İkinci layihə isə "Şimal-Cənub" beynəlxalq nəqliyyat logistika dəhlizindəki Azərbaycan komponentinə əlaqələndirilmiş status verilməsidir. Bu layihəyə görə, söhbət Qəzvin-Rəşt-Astara dəmir yolunun inşasından gedir. Bu dəmir yolu xətti 2000-ci illərdən sonra Rusiya tərəfindən "Şimal-Cənub"beynəlxalq nəqliyyat logistik keçidinin əsas tərkibi kimi nəzərdən keçirilir. Bu iki layihə Ermənistanın bölgədəki maraqlarına ziddiyyət təşkil edir. Azərbaycanın enerji sistemi vasitəsilə İran və Rusiya enerji sisteminin sinxronlaşdırılması dəhlizinin yaradılmasına görə hazırda Ermənistanın cəlb edilməsi ilə həyata keçirilən İran-Ermənistan-Gürcüstan-Rusiya şimal-cənub enerji keçidi layihəsinin zəruriliyi əhəmiyyətini itirə bilər. Belə çıxır ki, əvvəllər bu enerji dəhlizinin yaradılmasında Ermənistan əsas amil kimi nəzərdən keçirilirdisə, 2018-ci ildən sonra Azərbaycanın bu layihəni də öz nəzarətinə alması nəticəsində həm Tehran, həm də Moskva ilə geniş iş aparılıb. Qeyd etmək lazımdır ki, bu məsələ ilə bağlı artıq Azərbaycan, Rusiya və İran nümayəndələrinin sentyabr ayında Bakıda mütəxəssislərinin iştirakı ilə üçtərəfli görüş keçirməsi nəzərdə tutulur". O hesab edir ki, Ermənistan nəqliyyat dəhlizi olma gücünü itirmiş olsa vəziyyət kritik həddə çata bilər: "Bu, Ermənistan üçün ciddi çağırışdır. İran-Ermənistan və Ermənistan-Rusiya yeni yüksək gərginlikli xətt layihələrini həyata keçirmək üçün 300 milyon ABŞ dolları kredit cəlb edib. İndi isə Ermənistan, faktiki olaraq, enerji blokadası şəraitinə düşə bilər. Nəqliyyat logistik komponentinə dair məsələyə gəldikdə isə, aydındır ki, 2007-2008-ci illərdən sonra "Şimal-Cənub" nəqliyyat keçidinin əsas hissəsi İran-Ermənistan dəmir yolu xətti olaraq nəzərdən keçirildi. Bir sıra geosiyasi, daxili siyasi və digər problemlərdən irəli gələrək, bu layihə həyata keçirilmədi. Lakin bunun baş tutmamasına əsas səbəblərdən biri yenə də Azərbaycan tərəfindən İran-Azərbaycan dəmir yol xətlərinin birləşdirilməsini nəzərdə tutan layihənin icrası üzrə fəal iş aparılması olub. Bu layihə yekun olaraq "Şimal-Cənub"nəqliyyat keçidi layihəsinin əhəmiyyətli və strateji tərkib hissəsi kimi tanınarsa, Ermənistan yenə də nəqliyyat dəhlizi olma gücünü itirmiş olacaq.

Ermənistanın ixrac etməyə enerji gücü olsa da, Azərbaycan tərəfindən öz elektrik enerjisini müxtəlif istiqamətlərə, xüsusilə İran və Gürcüstan istiqamətinə ixrac etməyə yönəlmiş fəal siyasət buna mane olur. Bunun nəticəsində Ermənistan üçün vacib olan enerji bazarları, xüsusilə İran və Gürcüstan bazarı tədricən itirilməkdədir. Bildirilir ki, problem yalnız Azərbaycanın enerji bazarlarını ələ keçirməsi yox, həm də Ermənistanda istehsal edilən enerjinin maya dəyərinin baha olmasıdır. Hazırda istər İranda, istərsə də Gürcüstanda güclü diplomatik və lobbi fəaliyyətinə ehtiyac var". Amma Davtyan etiraf edir ki, bu sahədə itirilmiş mövqelərin bərpası getdikcə daha çətin görünür.

Onu da qeyd edək ki, Azərbaycanın Ermənistanı getdikcə daha çətin duruma salmasına dair Ermənistanın keçmiş prezidenti Robert Köçəryan da "Ermənistanın səsi" qəzetinə müsahibəsində olduqca maraqlı fikirlər səsləndirib. Sabiq prezident vurğulayır ki, artıq Ermənistan üçün xarici siyasətdə dəhliz fövqəladə həddə daralıb. Onun sözlərinə görə, bir gecə içində siyasi oriyentasiyasını dəyişən hakimiyyət üçün vəziyyət ağırlaşır: "Səmimiyyəti təqlid edirlər ki, bu da həmişə alınmır. Burada siyasi riyakarlıq ortaya çıxır, nəticədə tərəfdarlarla münasibətlər pozulur". Köçəryan hesab edir ki, bu durumda Ermənistan üçün geosiyasi vəziyyət çətinləşib: "ABŞ-İran münasibətləri, gürcü iqtisadiyyatında yeni çətinliklər və Türkiyə-Azərbaycan amilinin artması Ermənistan və Qarabağ üçün gələcək çağırışları özündə saxlayır. Bizim ölkəmiz bu çağırışlara qarşı durmağa hazırdırmı, yoxsa biz inkişaf imkanını qəti şəkildə itirə bilərik?! Məsələni düzgün qoymalıyıq. Regionumuzun nüfuzlu oyunçusu olmaq Ermənistana lazımdır? Biz nə ilə maraqlanmalıyıq, qonşularımızdan üstün cəhətlərimiz nədir, problemlərimiz haradadır? Bu məsələlərin dürüst cavabı arzuolunmazdır. Biz dörd ölkənin arasında sıxılıb qalmışıq. Bizim Türkiyə və Azərbaycanla münasibətlərimiz yaranmadı, İran ABŞ-ın sanksiyalarına məruz qalır. Gürcüstan Ermənistana zidd olan geosiyasi ittifaqa fəal meyil edir.

Ermənistanda demoqrafik vəziyyət pisləşir, əhali qocalır. Türkiyə və Azərbaycanla münasibətlərin problemli olması bizim regional imkanlarımızı azaldır. Digər tərəfdən, təbii resursların kasadlığı bizim ölkəyə transmilli şirkətlərin marağını öldürür". Məhz belə bir vəziyyətdə, Köçəryan da daxil olmaqla, Ermənistanda böyük əksəriyyət hesab edir ki, Dağlıq Qarabağ münaqişəsi ilə də bağlı İrəvanın bütün manevr imkanları tükənir. Gözlənir ki, Azərbaycan və Türkiyə faktoru ilə yanaşı, regionda digər oyunçuların da Ermənistana yönəlik təzyiqləri artacaq. Belə vəziyyət, öz növbəsində, Qarabağ məsələsində Ermənistanın müqavimət imkanlarının daha sürətlə sıradan çıxmasına, konfliktin nəhayət Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə gətirib çıxaracaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Dubay şeyxinin qaçmış arvadı Britaniya məhkəməsindən ərindən qorunmaq üçün mühafizə istədi



**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş naziri və Dubay əmiri Şeyx Məhəmməd ibn Rəşid əl-Maktumun həyat yoldaşı Haya bint əl-Hüseyn sığındığı Böyük Britaniyada ərindən qorunmaq üçün mühafizə tələbilə məhkəməyə müraciət edib.**

Baki-xeber.com xəbər verir ki, BBC əl-Maktumun (69) altı arvadından biri olan şahzadə Hayanın (45) Londonda ərinə qarşı iddia qaldırdığını yazır.

Şahzadə Hayanın İngiltərə Ali Məhkəməsində qaldırdığı iddia ilə bağlı ilk məhkəmə iclası keçirilib. Hayanın məhkəmədən "məcburi evlilikdən qorunması"nı tələb etdiyi iddia edilir. Haya ölkəni birlikdə tərk etdiyi övladlarının qəyyumluğunun da ona verilməsini istəyib. Hayanın məhkəmədən başqa tələbləri də olub, ancaq bu tələblərin nədən ibarət olduğu hələlik məlum deyil.

Əl-Maktum isə məhkəmənin qapalı keçirilməsini istəyib, ancaq hakim onun iddiasını rədd edib.

İngiltərədə məcburi nikaha qarşı və ya məcburi ailə qurmağa görə qaldırılan iddialarda məhkəmə "məcburi nikahdan qorunma" qərarı verə bilər. Bu qərarı pozan istənilən şəxsə 5 ilə qədər həbs cəzası verilə bilər.

BƏƏ-nin Londondakı səfirliyinin əməkdaşı iddialarla bağlı deyib: "BƏƏ hökuməti başqalarının özəl həyatı haqqında iddialara cavab vermək niyyətində deyil".

Haya bir neçə ay əvvəl sığınacaq almaq üçün qaçdığı Almaniyadan Londona gedib və orada gizlənirdi. Onun şəhərin mərkəzindəki Kensington Sarayı bölgəsində 100 milyon dollardan çox dəyəri olan bir evdə yaşadığı bildirilir.

Hayanın qaldırdığı iddianın Britaniya ilə BƏƏ arasında diplomatik böhrana səbəb ola biləcəyi deyilir. İordaniya kralı Abdullahın ögey bacısı olan Hayanın bu ölkə ilə BƏƏ arasında da problem yaratması ehtimalı var.

Əl-Maktum altıncı arvadı şahzadə Hayanın qaçmasından sonra qələmə aldığı qəzəbli bir şeirdə adını açıqlamadığı bir qadını "ona və vətəninə xəyanətdə" ittiham etmişdi. Əl-Maktumun "İnstagram" səhifəsində paylaşdığı "Sevdin və öldün" adlı şeirdə deyilir:

"Xain, sən ən dəyərli etimada xəyanət etdin və oynadığın oyun üzə çıxdı,
Yalan danışdığın günlər bitdi.
Artıq mənim yanımda yerin yoxdu,
Kiminlə məşğulsan onun yanına get,
Yaşamağın və ya ölməyin vecimə deyil".

Amerikanın "ABC News" televiziyasının məlumatına görə, 4 milyard dollardan çox şəxsi sərvətə sahib əl-Maktum dünyanın ən varlı insanlarından biridir.

# Tehranın arvadını qətlə yetirən keçmiş meri ölüm cəzasına məhkum edildi



**Tehranın ikinci arvadını qətlə yetirdiyini etiraf edən keçmiş meri Məhəmməd Nəcəfi ölüm cəzasına məhkum edilib. Qabaqcıl islahatçı kimi tanınan Nəcəfiyə qarşı rəsmi döymə, qətl və qanunsuz silah saxlamaq ittihamı irəli sürülmüşdü.**

Prokuror mayın 28-də deyib ki, Nəcəfi polis əməkdaşlarına təslim olub və həyat yoldaşını məişət zəminində qətlə yetirdiyini etiraf edib.

Mitra Ostadın meyiti Tehranın şimal-qərbindəki zəngin Səadətabad məhəlləsindəki evində aşkar olunub. IRNA rəsmi xəbər agentliyi polisə istinadən bildirib ki, qadına bir neçə güllə vurulub. Odlu silahla törədilən belə qətllər İranda nadir hadisədir.

Nəcəfi vəzifəsindən ötən il, gənc qızların rəqs etdiyi bir tədbirə qatıldıqdan sonra sərt xətt tərəfdarları tərəfindən kəskin tənqid olunaraq istefa vermişdi, hərçənd istefasına səbəb kimi sağlamlığı ilə bağlı problemləri də göstərmişdi.

"Ensaf News" internet portalının bir müxbiri deyib ki, Ostad mayın 27-də agentliyə zəng etmiş və müsahibə vermək istədiyini bildirmişdi. Jurnalist Parisa Salehi əlavə etmişdi ki, Ostad Ensaf portalının redaksiyasına mayın 28-də gəlməli idi.

Məhkəmənin qərarı yekun deyil, belə ki, Nəcəfinin apellyasiyaya müraciət haqqı var. Ostadinin ailəsi islama görə intiqam qanunun tətbiq edilməsini istəyib. "Qanaqan" adlanan cəza növü bu instansiyada ölüm hökmü ilə nəticələnir.

Nəcəfinin məhkəməsi ən kiçik detallaradək diqqət dövlət mediasının mərkəzində olub. Belə ki, siyasətçi ilə bağlı belə bir qalmaqal nadir hallardan hesab edilir. Riyaziyyatçı, professor və veteran siyasətçi olan Nəcəfi bir zamanlar prezident Həsən Ruhaninin iqtisadi müşaviri və təhsil naziri vəzifələrində çalışıb. O, Ostanla ilk arvadından boşanmadan evlənmişdi. Çoxarvadlılıq İranda qanuni hesab edilsə də, bu, ictimai qınaqlara səbəb olur.

İranın bəzi ifrat sərt xətt tərəfdarları prosesi islahatçıların "mənəvi iflası" adlandırılıb. İslahatçılar isə dövlət medaisında prosesin qərəzli şəkildə qələmə verildiyindən şikayətlənib.

# BƏƏ-nin, ABŞ sanksiyalarına baxmayaraq, İranla maliyyə əməliyyatlarına razılıq verdiyi iddia edildi



**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iki bankının, ABŞ-ın sanksiyalarına baxmayaraq, İranla maliyyə əməliyyatları ilə bağlı razlığa gəldiyi iddia edilir.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, İLNA-ya açıqlama verən İran Birja Birliyinin baş katibi Şahab Kurbani İran və BƏƏ-nin, sanksiyalara baxmayaraq, bank sektorunda münasibətlərini yaxşılaşdırdıqlarını söyləyib.

"Birləşmiş Ərəb Əmirliklərindən iki bank İranla maliyyə əməkdaşlığına hazır olduqlarını bəyan edib. Bu mövzuda danışıqlar başladı, lakin hələ əməliyyatlarla bağlı reai fəaliyyətə başlanmayıb" - Kurbani deyib.

İranın bank əməliyyatlarını Oman vasitəsi ilə apardığını bildirən Kurbani Omanın valyutasının beynəlxalq bazarlarda dəstəklənmədiyini və buna görə də, baha olmasına baxmayaraq, BƏƏ banklarına üstünlük verəcəklərini deyib. Lakin Kurbani sözügedən BƏƏ banklarının adını açıqlamayıb.

Regional məsələlərdə Səudiyyə Ərəbistanı ilə birlikdə İrana qarşı cəbhədə yer alan BƏƏ rəhbərliyinin son zamanlar İranla yaxınlaşdığına dair mediada xəbər dolaşır.

**Ən son məlumatlara görə, banklar tərəfindən əhaliyə verilən kreditlərin 42,9 faizi istehlak kreditlərinin payına düşür. Beləliklə, Azərbaycan bank sisteminin aktivlər portfelində əhaliyə yönələn kreditlərdə ürəkaçan olmayan məqamlar var. Məsələ ondadır ki, bu, bankların sabitliyi nöqteyi-nəzərindən o qədər də təhlükəli tendensiya deyil, lakin bunu əhali haqqında demək olmaz.**

# Banklar "istehlak kreditləri" adı altında soyğunçuluq kursundan bir addım da çəkilmək istəmir - 43 faiz hara, 3-5 faiz hara...

## *Rəsul Cahangirli: "İstehlak kreditləri məsələsində çox vaxt banklar müştərilərin məlumatsızlığından sui-istifadə edirlər"*




Çünki əhali tərəfindən həddindən artıq miqdarda kreditlərin götürülməsi ölkə vətəndaşlarının növbəti borc əsarətinə düşəcəyini deməyə əsas verir. Müqayisə üçün bildirək ki, iqtisadiyyatın energetika və kimya sahəsinə 3,4%, kənd təsərrüfatına 3,8%, tikinti və daşınmaz əmlaka 2,8%, sənaye və istehsala isə 5,9% kredit ayrılıb.

Hökumətin daha əvvəl ikiqat devalvasiyaya qədər xarici valyuta ilə verilmiş problemli kreditlərlə bağlı məsələnin həlli istiqamətində atdığı addımlar nəticəsində Azərbaycanın bank bazarında kredit portfelində artımla bağlı müsbət tendensiya izlənir. Prezident İlham Əliyevin 28 fevral 2019-cu il tarixində imzaladığı və 602 min ölkə vətəndaşını əhatə edən "Azərbaycanda fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman problemli kreditlər məsələsini əhəmiyyətli dərəcədə həll edib. Güman olunurdu ki, bütün bunlardan sonra banklar real sektora daha çox kredit ayırmaqda maraqlı olacaqlar. Ancaq məlum oldu ki, banklar bunda maraqlı deyil. Banklar, əvvəlki kimi, istehlak kreditlərinə daha çox vəsait ayırmaqla vətəndaşları borca salmaqda maraqlıdırlar. Nəzərə almaq lazımdır ki, banklar tərəfindən istehlak kreditləri üçün müəyyən edilmiş ən yüksək faiz dərəcələri illik 25 faizdir. Başqa sözlə, kredit borcunu qaytararkən, borclu bankdan götürdüyü hər dörd manatın əvəzinə azı 5 manat qaytarmalıdır. Bu heç də kiçik rəqəm deyil. Belə görünür ki, banklar necə gəldi istehlak kreditləri verilməsinin illər əvvəl yaratdığı problemlərdən nəticə çıxarmaq istəmirlər. Bu kursu davam etdirib soyğunçuluqda maraqlıdırlar.

> *"Məlum qərara rəğmən, banklar yenə də real sektora kredit ayırmaqda maraqlı deyil"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, banklar tez və asan vasitələrlə daha çox gəlir əldə etmək istəyirlər: "Bunu da daha çox istehlak krediti verməklə həyata keçirməyə çalışırlar. Bu da ədalətli deyil. Necə gəldi istehlak kreditlərinin verilməsinin hansı sosial fəsadlara gətirib çıxardığını biz yaxın tarixdə gördük. Nəticədə xeyli sayda ölkə vətəndaşı borclandı, bəziləri girov qarşılığında əmlakını itirdi. Eləlləri oldu ki, borca görə intihar etdi. Prezident İlham Əliyev humanistlik göstərib fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı qərar verdi. Əgər bu addım olmasaydı, o zaman bu sahədə vəziyyət daha acınacaqlı olardı. Bu qərara rəğmən, banklar yenə də real sektora kredit ayırmaqda maraqlı deyil. Bankirlər biznesin kreditləşdirilməsinə maraq göstərmirlər. Kiçik və orta sahibkarlıq subyektlərinə çox az vəsait ayırırlar. Bu sahədə elə çətin şərtlər qoyurlar ki, sahibkar kredit götürməkdə maraqlı olmur. Nəticədə ölkədə qeyri-neft sektorunun inkişafı arzuolunan səviyyədə olmur. Onu da qeyd edim ki, istehlak kreditləri məsələsində çox vaxt banklar müştərilərin məlumatsızlığından sui-istifadə edirlər. Belə ki, müxtəlif vasitələrlə müştərini şirnikləndirirlər. Sonra müştəri məsələnin mahiyyətini anlayanda artıq gec olur və bankdan asılı vəziyyətə düşür. O üzdən, vətəndaşları maarifləndirmək lazımdır ki, soyğunçu bankların təl əsinə düşməsinlər".

***Vidadi ORDAHALLI***

---

**Açıqlanan statistik rəqəmlərə əsasən, əhalinin banklara qoyduğu müddətli əmanətləri azalıb. Maliyyə Bazarlarına Nəzarət Palatasının yaydığı məlumatda qeyd olunur ki, 30 iyun 2019-cu il tarixində fiziki şəxslərin (əhalinin) müddətli əmanətləri 5 milyard 337.4 milyon manat təşkil edib.**

# Əhalimizin bank əmanətlərində 43 faiz azalma nə ilə bağlıdır...

## *Əli Əlirzayev: "Bank əmanətlərinin azalması müvəqqəti xarakter daşıyır"*




Bu, cari ilin mart ayının sonu ilə müqayisədə 128,4 milyon manat, ötən ilin sonu ilə müqayisədə isə 141,6 milyon manat azdır. May ayının sonu ilə müqayisədə iyun ayında müddətli əmanətlər 43,4 milyon manat azalıb. Müddətli əmanətlər ötən ilin dekabr ayının sonunda 5 milyard 479 milyon manat, martın sonunda 5 milyard 465.8 milyon manat, mayın sonunda isə 5 milyard 380.8 milyon manat təşkil edib.

Qeyd edək ki, ilin əvvəlində banka qoyulan əmanətlərdə artım qeydə alınmışdı. Ancaq son aylar bu sahədə durğunluq yaşanır. Bank əmanətlərinin nə səbəbdən azalmasını öyrənmək üçün iqtisadçı-ekspert Əli Əlirzayevə müraciət etdik. O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, banklara marağın, inamın artırılması olduqca vacibdir ki, banklar daha çox depozit cəlb edə bilsinlər: "Banklara marağın az olması, inamın aşağı olması ümumi səbəbdir. Çalışmaq lazımdır ki, vətəndaşlar əmanətlərini valyuta səbəti formasında saxlasınlar, yalnız bir valyutada saxlamasınlar. Bu, nəticə etibarilə, vətəndaşlara imkan verə bilər ki, mövcud valyuta risqlərindən sığortalana bilsinlər".

> *"Banklara marağın, inamın artırılması olduqca vacibdir ki, banklar daha çox depozit cəlb edə bilsinlər"*

Həmsöhbətimiz onu da vurğuladı ki, bank əmanətlərinin azalması müvəqqəti xarakter daşıyır: "Məlumdur ki, yay fəslində əhalinin bir qismi istirahət üçün ölkədən kənara çıxır. Belə olan halda, banka yerləşdirilən əmanətlər geri çəkilir. Eyni zamanda, bu fəsildə əhali daha çox bağ evi almağa üstünlük verir. Təbii, bu hal bank əmanətlərinin azalmasına təsir edir".

İqtisadçının sözlərinə görə, manatın məzənnəsində, ən azından, yaxın müddət üçün bir dəyişiklik gözlənilmir.

Odur ki, manatla olan depozitlərin həcminin artması gözlənir. Manatla depozitlərdə faizlər yüksək qaldıqca, cəlbedicilik də artacaq. Eyni zamanda, bank sisteminə güvənin artması da bu il manatla depozitlərin yüksəlməsinə səbəb olan amildir.

***Günel CƏLİLOVA***

# Bakının zibil qutuları - saysız problemlər mənbəyi: dezinfeksiya yox, quraşdırılma normaları yox...

**Müasir dövrdə təmizliyə riayət olunması bir mədəniyyət göstəricisidir. Ölkə haqqında təəssürat onun hava limanı, dəmir yolu, avtomobil yolları, tualetlərin və şəhərdəki zibilxanaların vəziyyəti əsasında formalaşır. İlk baxışdan bu kiməsə qəribə görünə bilər, amma bu doğrudan da belədir. Bakıya gələn əcnəbilər geri döndükdən sonra şəhərimiz haqqında təəssüratlarını bölüşəndə mütləq sadaladıqlarımız barəsində danışırlar.**

***Ələmdar Nəbiyev:*** *"Mümkün olan qədər çalışırıq ki, zibil qutuları uyğun yerlərdə qoyulsun və sakinlər üçün hansısa problem yaranmasın"*

***Arzuxan Əlizadə:*** *"Bakıxanovda zibil qutularının qoyulması, zibillərin daşınması rayon kommunal təsərrüfatlarının səlahiyyətindədir"*

Hazırda bu sahədə paytaxtda bir sıra problemlər mövcuddur. Problem ondan ibarətdir ki, bu gün Bakının mərkəzində və ətraf ərazilərində zibil qutularının yeri düzgün müəyyənləşdirilməyib. Zibil qutularının bəziləri əlverişsiz yerlərə qoyulub ki, bu da sakinlərin haqlı narazılığına səbəb olur. Görürsən ki, zibil qutularını binaların girişi ilə üzbəüz yerdə, yolun düz yanında, marketin qarşısında qoyublar. Üfunət iyindən harasa getməyə belə peşman olursan. Açıq-aydın görünür ki, zibil qutuları qoyularkən onların təmizlənməsi üçün şərait nəzərə alınmayıb. Bir sözlə, sakinlər zibil qutularının çox uzaq məsafədə qoyulmasından, bəziləri bu qutuların binanın həyətində, digərləri isə düz qapılarında qoyulmasından şikayətlənirlər. Adətən zibil qutuları yaşayış binasından, xidmət və iaşə obyektlərindən bir qədər aralıda qoyulmalı, sakinlərin istirahətinə və gediş-gəlişə mane olmayan yerlərdə yerləşdirilməlidir.

Bu məsələdə bələdiyyələrin üzərinə böyük məsuliyyət düşür. Ancaq müşahidələr göstərir ki, bu heç də hər yerdə belə deyil. Məsələn, sosial şəbəkələrdə yayılan məlumata görə, Xırdalan şəhərinin Abşeron Gənclər şəhərciyində bununla bağlı ciddi problem yaranıb. Sakinlərin dediyinə görə, əvvəllər zibil qutularının qoyulduğu yer sakinləri qane edib. Ancaq "Al market" şəbəkəsinin filialı açılandan sonra bu sahədə vəziyyət qarışıb. Belə ki, zibil qutularını hara gəldi qoyublar. Zibil qutuları əsasən binaların girişi ilə üzbəüz yerlərə qoyulub ki, bu səbəbdən ətrafı üfunət iyi bürüyüb. Belə iddialar var ki, sözügedən market filialı bina komendantına məxsus olduğu üçün belə xoşagəlməz vəziyyət yaranıb.

Ən nəhayət, zibil qutuları ilə bağlı mühüm problemlərdən biri də onların dərmanlanmamasıdır. Qonşu





Gürcüstanda zibil qutuları estetik görünüşünə görə diqqəti cəlb etməklə yanaşı, həm də mütəmadi dərmanlanır. Bizdə isə zibil qutularının haçansa dərmanlandığını görməmişəm. Hansı ki, bu olduqca vacib məsələdir.

Sözügedən məsələ ilə bağlı bəzi bələdiyyələrin fikirlərini öyrənməyə çalışdıq.

Sabuncu Rayon Bələdiyyəsinin sədr müavini Ələmdar Nəbiyevlə əlaqə saxladıq. O, qəzetimizə açıqlamasında belə problemlər yarandıqda dərhal müdaxilə etdiklərini bildirdi: "Bizdə də belə problemlər olur. Görürsən ki, hansısa ünvanda yaşayan sakinlər zibil qutularının yerindən narazıdır. O zaman biz dərhal bunu araşdırırıq və yaranan problemi aradan qaldırmaq üçün müvafiq tədbirlər görürük. Bu məsələdə Sabunçu Bələdiyyəsi son dərəcə diqqətlidir. Mümkün olan qədər çalışırıq ki, zibil qutuları uyğun yerlərdə qoyulsun və sakinlər üçün hansısa problem yaranmasın. Bu məsələdə sakinlərin fəallığından çox şey asılıdır. Yəni belə problemlə üzləşdikdə dərhal bələdiyyəyə müraciət etsinlər. Mən Sabunçu Bələdiyyəsinin adından danışaraq bildirirəm ki, bizdə belə problem yarananda aradan qaldırırıq".

Bakıxanov Bələdiyyəsinin üzvü Arzuxan Əlizadənin sözlərinə görə, qəsəbədə zibil qutularının qoyulması, zibillərin daşınması rayon kommunal təsərrüfatlarının səlahiyyətindədir: "Bələdiyyələr konkret olaraq bu məsələ ilə məşğul deyil. Deməyim odur ki, bu məsələyə müxtəlif yerlərdə, müxtəlif yanaşma var. Bəzi yerlərdə bu işi bələdiyyələr görür, elə yer var ki, rayon kommunal təsərrüfatları bu işlə məşğul olurlar. Bakıxanov Bələdiyyəsində bu işin təşkili fərqlidir.

Məsələ ondadır ki, zibil qutusunun yeri ilə bağlı narazılıq olanda bələdiyyəyə müraciət olunur.

Bu zaman bələdiyyə öz səlahiyyəti çərçivəsində həm rayon icra hakimiyyətinə, həm də kommunal təsərrüfat birliyinə müraciət edir. Ondan sonra problem həllini tapır. Ancaq yaxşı olardı ki, paytaxtın bütün yerlərində bu işlə bələdiyyələr məşğul olsun. O zaman bu sahədə problemlər elə də çox olmaz".

***Vidadi ORDAHALLI***

# Sabirabadda iki nəfərdə "qara yara" aşkarlandı, biri dünyasını dəyişdi



**Sabirabadda iki nəfərdə "qara yara" xəstəliyi aşkarlanıb, onlardan biri dünyasını dəyişib.**

Səhiyyə Nazirliyindən "Trend"ə verilən məlumata görə, Sabirabad Mərkəzi Rayon Xəstəxanasının infeksiya şöbəsinə yüksək hərarətlə 2 nəfər müraciət edib: "Öncə onlar hərarətlərinin soyuqdəymədən qalxmasını ehtimal ediblər. Lakin sonradan vəziyyətlərinin ağırlaşdığını görəndə qohumları xəstəxanaya müraciət etməyi qərarlaşdırıb. Müayinə zamanı infeksion şöbənin müdiri Fazil Əliyev xəstələrdə "qara yara" olmasını ehtimal edib. Bu səbəbdən də alınan nümunələr İmişli Rayonuna Taun Əleyhinə Stansiyaya göndərilib. Nümunələri öyrənən Taun Əleyhinə Stansiyanın mütəxəssisləri "qara yara" xəstəliyi diaqnozunu təstiqləyiblər. Diaqnozu bildikdə qohumları xəstələrin paytaxta aparılması qərarına gəliblər".

Nazirlikdən bildirilib ki, iyul ayının 25-də xəstələr ağır vəziyyətdə Kliniki Tibbi Mərkəzə yerləşdirilib. İyulun 29-da xəstələrdən biri - 60 yaşlı kişi dünyasını dəyişib:

"Həkimlərin bildirdiyinə görə, yara ölənin sağ əlinin baş barmağında olub. Xəstəxanaya gətirilərkən xəstələr ağır vəziyyətdə olublar. Hazırda ikinci xəstənin müalicəsi davam edir".

Qeyd edək ki, bu xəstəlik xəstə heyvanın emalı zamanı yoluxan infeksiyadır. İnsandan insana keçmir. 2014-cü ildə 10 nəfərdə, 2015-ci ildə 9 nəfərdə, 2016-cı ildə 10 nəfərdə, 2017-ci ildə 6 nəfərdə, 2018-ci ildə 9 nəfərdə, 2019-cu ildə isə 7 nəfərdə bu xəstəliyə yoluxma qeydə alınıb. Bu günə qədər xəstəliyə yoluxma ölümlə nəticələnməyib.

# Dinamik, qaynar uşaqlıqdan qəhrəmanlığa gedən yol

## *Azərbaycanın Milli Qəhrəmanı Ehtiram Əliyev haqqında bir neçə söz*





**Uşaqlıqdan daim hərəkətdə olmağı, dinamikliyi, hətta maşın sürməyi də çox sevirdi. Tez böyüyüb, ürəyində tutduğu bütün arzularına qovuşmaq istəyirdi. Bunlar Ehtiramın uşaqlıq düşüncələri idi. Amma sən saydığını say... Atasının vaxtsız vəfatı ailənin vəziyyətini ağırlaşdırmışdı. Anası İmmi xanım uşaqlarının qayğısız böyüməsi üçün min bir əziyyətə qatlaşmışdı.**

Gecəsini-gündüzünə qatıb, bütün ağır işlərdə çalışırdı. Lakin ailə böyük olduğundan, qayğıların həllinə nail olmaq çox çətin idi. Böyük qardaşı Oqtay erkən vaxtlardan anasına kömək edərək, qardaş-bacılarının yaxşı dolanması üçün əlindən gələni əsirgəmirdi. Gəncliyini, demək olar ki, onların yaxşı dolanmasına, yaxşı təhsil almasına sərf etdi. Ehtiram bunlardan xəbərsiz, hələ də öz uşaqlığını yaşayırdı. Qardaşı Oqtayı öz atası bilirdi.

Ehtiram da həddi-büluğa çatmışdı. Kənd həyatı onu çox bərkə-boşa da salmışdı. Böyüdükcə ana və qardaşının onlar üçün nə qədər əziyyət çəkdiyini dərk etməyə başlamışdı. Ona görə də elə bu çağlarından tez böyüyüb ailəsinə kömək etməyə can atırdı. Çalışırdı ki, az da olsa onların yükünü azaltsın. Lakin qardaşı onun ali təhsil almasını istəyir və bunun üçün əlindən gələni əsirgəmirdi. Zaman öz axarı ilə gedirdi. Səkkizinci sinfi bitirən Ehtiram daha evdəkilərə çətinlik yaşatmamaq niyyətilə evdən xəbərsiz Bakıya gələrək sənədlərini Bakı Maşınqayırma Texnikumuna verir. Texnikuma qəbul olaramsa evə xəbər edərəm, yox, qəbul olmaramsa burada qalıb, zavodların birində işə düzələrəm deyə öz-özlüyündə gələcək planlarını götür-qoy edir.

...Artıq o, tələbə adını qazanmışdı. Çox keçmir ki, bu sevinci bütün ailəsi bilir. Ana üçün bundan gözəl hədiyyə nə ola bilərdi həyatda? Həyat yoldaşı İsrayıl kişi vəfat edəndən sonra üzü gülməmişdi. İndi İmmi ananın yanağından sevinc göz yaşları axırdı. Çox şükür, Allahım, bu günü görməyi mənə qismət etdin deyərək, əlini Uca Tanrıya qaldırıb dua edirdi.

Ehtiramsa ailəsinin maddi vəziyyətinin o qədər də yaxşı olmadığını bildiyindən onlara yük olmaq istəmirdi. Texnikumda oxuduğu illərdə bir qarın ac, bir qarın tox yaşasa da, bunu ailəsinin yanında büruzə vermirdi.

Bu o illər idi ki, ölkədə vəziyyət getdikcə ağırlaşırdı. Qarabağdan və ətraf rayonlardan gələn hər qara xəbər, bütün ölkə gəncləri kimi, Ehtiramın da qəlbinə ox olub batırdı. Hər gün televizorun qarşısında oturub cəbhə xəbərlərini dinləyir, tələbə yoldaşlarına deyirdi: Daha burda əlimizi qoynumuza qoyub oturmaq olmaz. Mübarizə aparmalı, öz Vətənimizi qorumalı, onun yolunda canımızı fəda etməliyik!

...1992-ci ilin yayı idi. Ehtiram təhsilini başa vurub orduya getməyə qəti qərar verir. Erməni vandalları Xocalıda xalqımıza min bir işgəncə vermiş, ana, uşaq, yaşlı biləmdən əllərinə keçən hər kəsi qətlə yetirmişdi. Sağ ələ keçənləri isə əsir götürərək minbir işgəncəyə məruz qoymuşdu. Bir neçə gündən sonra o, könüllü orduya yazıldı. Ehtiramın qəlbi qisas hissi ilə döyünürdü.

Fiziki cəhətdən qüvvətli olmasını nəzərə alaraq onu Azərbaycanda ilk yaradılan Xüsusi Təyinatlılara qəbul edirlər. Bəlkə də bu, Allahın ona verdiyi bir şans idi ki, özünü bu çətin sınaqda sübut eləsin. Zabitlərin əksəriyyəti Əfqanıstan döyüşçüsü idi. Bunun üçün də onlar müharibənin nə olduğunu yaxşı bilirdilər. Zabitlər yaxşı bilirdilər ki, müharibədə adi bir səhv əsgərlərin həlak olmasına gətirib çıxara bilər. Onun üçün də əsgərlərə qarşı nizam-intizamlı, tələbkar idilər... Sonradan bu hərbi hissə hərb tariximizdə adını qızıl hərflərlə yazmış 777 saylı hərbi hissə kimi tarixə həkk oldu. Təsadüfi deyil ki, 777 saylı hərbi hissədən 14 döyüşçü Azərbaycanın ən yüksək fəxri adına - "Milli Qəhrəman" adına layiq görülmüşdü. Onlardan 4-ü bu gün də öz əməlləri ilə xalqına xidmət edir. Əfsanəvi komandirimiz, general-leytenant Rövşən Əkbərov yenə də hərbidə öz peşəsini şərəflə davam etdirir.

...Ehtiram Əliyevin xidmət etdiyi hərbi hissəni Naxçıvana göndərmişdilər. Dağlıq Qarabağ və ətraf rayonlarda olduğu kimi, burada da vəziyyət son dərəcə ağır idi. Düşmən hər tərəfdən Naxçıvan Muxtar Respublikasına hücumlar təşkil edirdi. Sədərəkdən gələn hər qara xəbər, orada yaşayanları təlaşa salmışdı. Əlavə qüvvələrə ehtiyac vardı. O, Sədərəkdə, Batabatda, Salvartı yaylağında erməni silahlı birləşmələrinə qarşı aparılan döyüş əməliyyatlarında yaxından iştirak edirdi.

Onun ilk döyüşü Salvartı yaylağında oldu. Düşmən Sisyan istiqamətindən güclü hücuma keçmişdi. Onların məqsədi yüksəklikləri ələ keçirib, daim əhalini atəş altında saxlamaq idi. Elə ilk döyüşdə Ehtiram özünün nəyə qadir olduğunu sübut etdi. Komandirlərin və döyüş dostlarının yanında hörməti birə - beş artdı. Beləliklə heç bir itki vermədən qəhrəman döyüşçülərin sayəsində, düşmən qüvvələri geri oturduldu. Həmin vaxtlarda Sədərək istiqamətində də ağır döyüşlər gedirdi. Erməni silahlı birləşmələri strateji əhəmiyyət kəsb edən bu ərazini nəin bahasına olursa-olsun Naxçıvandan ayırmağa çalışırdılar. O zaman nizami Milli Ordunun olmaması səbəbindən Sədərəki yerli özünümüdafiə taborları və polis dəstələri qoruyurdu. Qüvvələr nisbəti qeyri bərabər olduğundan, H.Əliyevin qətiyyətli addımları sayəsində bura yeni qüvvələr gətirildi. Ağır gedən döyüşlərdə Ehtiram Əliyevin xidmət etdiyi hərbi hissə Sədərək ərazilərinin düşməndən geri alınmasında xüsusi fədakarlıq göstərdi. Düşmənin bir neçə texnikası və onlarla canlı qüvvəsi məhv edildi. Məhz döyüşçülərimizin qəhrəmanlığı sayəsində Sədərək əraziləri erməni quldur dəstələrindən təmizləndi. Ancaq Xüsusi Təyinatlılardan da həlak olanlar az deyildi. Bu səbəbdən hərbi hissəni yenidən formalaşdırmaq üçün müəyyən vaxt lazım gəlirdi.

Bakıda 17-18 gün təlim keçdikdən sonra 1993-cü ilin iyul ayında E.Əliyevin xidmət etdiyi hərbi hissə Ağdam bölgəsinə göndərildi. Cəbhəyanı ərazilərimizdə olduğu kimi, burada da vəziyyət ağır idi. Demək olar ki, Ağdam rayonu büsbütün işğala məruz qalmışdı. Ağır gedən döyüşlərdə 3 kənd - Əfətli, Yusifcanl, Novruzlu kəndləri qəhrəman döyüşçülərin sayəsində geri alındı.

1993-cü il... Avqustun 23-ü... Düşmən ağır texnika ilə Füzuli rayonunun Əhmədbəyli kəndinə hücuma keçdi. Əsas strateji yüksəkliklər düşmənin əlində idi. Bu isə əməliyyatın gedişini xeyli çətinləşdirirdi. Buna baxmayaraq ordumuz əzmlə döyüşür, erməni yaraqlılarını geri çəkilməyə məcbur edirdi. Döyüşlərin birində E.Əliyev sürünə-sürünə 28 nəfər döyüşçü ilə yaxınlıqdakı təpəyə qalxdı. Burdan düşmən mövqeyini görmək mümkün idi. Ardıcıl zərbələrdən sonra düşmənin 2 texnikası alova büründü. Düşmən bu zərbədən çaşbaş qalaraq geri çəkilməyə məcbur oldu. Fürsəti əldən verməyən cəsur döyüşçülərimiz qənimət olaraq bir tankı da ələ keçirməyə müvəffəq oldu. Bu uğurlu əməliyyat bir neçə kəndin geri alınması ilə yadda qaldı.

1994-cü il... Yanvar ayının 5-i... Mübarizə davam edir, düşmən hücumlarını artırırdı. Ordumuz əlavə qüvvə alaraq yenidən hücuma keçdi. E.Əliyevin xidmət etdiyi dəstə fürsətdən istifadə edərək düşmənin arxasına keçdi. Yaraqlılar sarsılmışdı. İki gün davam edən ağır döyüşdə düşmən 45 km geri oturduldu. Lakin... atılan güllələrdən biri Ehtiramı yaralayır. O, yaralanmasına baxmayaraq, yoldaşlarını tək buraxmır. Axı axıradək onlarla birlikdə olacağına and içmişdi. Qısa müddət müalicə olunduqdan sonra yenidən döyüş yoldaşlarının yanına qayıdır.

20 aprel 1994-cü ildə hərbi hissəni Tərtər bölgəsinə göndərdilər. Burada da döyüşlər ara vermirdi. Milli Ordunun əsgərləri düşmənə qarşı mətnlə vuruşurdular. Burada bir neçə əsgər, zabitimiz şəhid olsa da, fədakar döyüşçülərimizin iradəsi qırılmadı. Əksinə, daha da möhkəmləndi, bərkidi. Düşmənin həmin istiqamətdəki mənfur niyyətlərinin boşa çıxmasına nail ola bildilər.

E.Əliyev 1996-cı ilin avqust ayında ordudan tərxis olundu. 1997-1998-ci illərdə Bakının Sabunçu rayon Polis İdarəsində işlədi.

2000-ci ildə tələbəlik sevinci yaşadı. O, əvvəlcə Beynəlxalq və Şəhərlərarası Avtovağzalda sərnişindaşımanın rəis müavini, hazırda isə həmin şöbənin rəisi vəifəsində öz işini şərəflə davam etdirir.

Gözəl ailə başçısıdır. İmmixanım, Elvin, Emin adlı 3 övlad atasıdır.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 sylı fərmanı ilə Əliyev Ehtiram İsrayıl oğluna " Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

Mərdlik, igidlik, hünər, bir də yüksək Vətənpərvərlik hissi... Bunlar qəhrəmanlıq deyilən bir zirvədə birləşib. O zirvədə ki, insan olum, ya da ölüm məqamı ilə üzləşir. Taleyinə ölüm yazılanlar şəhidlik zirvəsində qərar tutur. Adi bir təsadüf üzündən qalanlar isə həmin o şəhidlik zirvəsini görüb qayıdanlardı. Hər iki halda məna və məzmun eynidir: Qəhrəmanlıq!! Vətən uğrunda canını fəda verməк , bir də ölümün gözünə mərdliklə, hünərlə baxmaq qüdrəti... Azərbaycanın Milli Qəhrəmanı kimi ən yüksək ada layiq görülmüş Ehtiram İsrayıl oğlu Əliyev kimi...

Yurda bağlılığı, torpağa məhəbbəti, insanlığa sevgini öncə valideynlərindən, sonra isə müəllimlərindən öyrəndi və onları əsgər yoldaşlarına öyrətməyə çalışdı. Döyüş dostları da onunla çiyin-çiyinə durmaqdan qürur duydular. Ehtiram Əliyev bu gün o adət-ənənəni işlədiyi kollektivdə də qoruyub saxlayır. Dosta sadiq olmağı, düşmənə isə hədsiz nifrət hissini gənclərə aşlamağa çalışır.

***Vüqar ƏSGƏROV***
***Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyasının redaktoru, ssenarist***

**Azərbaycanda tanınmış şou-biznes nümayəndələrilə bağlı yaşanan olaylar tükənmək bilmir. Birinə son qoyulan kimi yeni bir hadisənin şahidi oluruq. Artıq şou-biznes nümayəndələri şəxsi həyatlarını ictimailəşdirməkdən belə çəkinmirlər. Kim-kiminlə ailə qurdu və ya hansısa müğənninin iş adamı ilə münasibətdə olduğunu belə açıq şəkildə nümayiş etdirirlər.**

# Şou əhli rəsmi nikahsız molla kəbinlərini ekranlarda fırladır - nikahsız "kəbin qadağası" harda qaldı...



***Könül Aypara:** "Bəzi şou-biznes nümayəndələri filankəslə dini nikaha daxil olması ilə gündəmdə qalmaq istəyir"*

***Cəmşid Əliyev:** "Rəsmi izdivac sənədi olmadan dini nikahın kəsilməsi düzgün deyil"*

Son zamanlar tanınmış şou-biznes nümayəndələrinin bəzisi hansısa iş adamı ilə dini nikaha daxil olduğunu sosial şəbəkə vasitəsilə ictimailəşdirir. Bu tip hadisələri son zamanlar tez-tez müşahidə etmək olar.

Nəsiminin sözlərinə yazılmış "Pəncü-şeş" mahnısıyla qalmaqallara səbəb olmuş müğənni Afət Fərmanqızı bu günlərdə iş adamı ilə dini nikah kəsdirib. Sənətçi onunla çəkdirdiyi fotonu və kəbin kağızını "Səni sevirəm, hacı" yazaraq paylaşıb.

Bildirək ki, Azərbaycanda bütün məscidlərdə dini kəbin kəsdirən şəxslərdən Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı (VVAQ) şöbələrinin verdiyi rəsmi nikah şəhadətnaməsi tələb olunur.

Maraqlıdır, rəsmi nikah olmadan Afət Fərmanqızı və "hacı" adlandırdığı şəxs dini kəbini necə kəsdirib?

Bununla bağlı adıçəkilən müğənniyə müraciət edilib. Onun cavabı isə maraqlı olub.

- Afət xanım, salam. Bilmək olar, Siz dini nikaha harada girmisiniz?
- Məsciddə.
- Hansı məsciddir, deyə bilərsiniz?
- Neynirsiniz ki, prokurorsunuz?
- Xeyr, jurnalistəm, sadəcə, evliliyinizlə bağlı açıqlama almaq istəyirəm.
- Mən onu lazım olsa, yazardım ki, filan məsciddə kəbin kəsdirmişik, yazmamışamsa, deməli, lazım deyil. Bu gün nə yediyimizi də deyək?
- Necə?
- Nə yediyimizi də bilmək istəmirsiniz?
- Biz, sadəcə, açıqlama almaq istəyirik, bu tipli reaksiyalara ehtiyac görmürük.
- Mən bir şey bilmək istəyirəm, o sual nə əhəmiyyət kəsb edir ki?
- Sual o əhəmiyyəti kəsb edir ki, rəsmi nikah olmadan Azərbaycanda dini kəbin kəsdirməyə icazə yoxdur. Siz isə rəsmi nikahla bağlı bir şey paylaşmamısınız. Əgər rəsmi nikah yoxdursa, dini kəbin kəsən məscidin hansı məscid olduğunu bilmək istəyirik.
- Rəsmi nikahın olub-olmaması məndə qalsın.

Məlumat üçün bildirək ki, 2017-ci ilin iyununda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "Azərbaycanda rəsmi nikah olmadan dini kəbinin bağlanması qanunsuzdur. Bunu edən din xadimi cəzalandırılacaq" , - deyə bildirib. Komitə sədri qeyd edib ki, Azərbaycan dünyəvi ölkədir, nikah münasibətləri ilə bağlı müvafiq dövlət qurumu var: "Dini nikaha o zaman girmək olar ki, bu nikahı müvafiq dövlət qurumu təsdiqləmiş olsun. Bu qurumun təsdiqləmədiyi nikahı bağlayan din xadimi rəsmi təyin olunubsa, cəzalandırılacaq, tutduğu vəzifədən azad olunacaq. Əgər bunu edən din xadimi qeyri-rəsmi fəaliyyətlə məşğuldursa, hüquq-mühafizə orqanları tərəfindən məsuliyyətə cəlb ediləcək".

Onu da vurğulayaq ki, İnzibati Xətalar Məcəlləsində rəsmi nikah sənədi olmadan kəbin kəsən mollalar üçün məsuliyyətin müəyyən edilməsi zərurəti var. Bu barədə bir müddət öncə Ailə, Qadın və Uşaq Problemləri Komitəsinin sədri Hicran Hüseynova media nümayəndələrinə açıqlamasında bildirib. O qeyd edib ki, Azərbaycanda bütün məscidlərdə dini kəbin kəsdirən şəxslərdən Ədliyyə Nazirliyi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı (VVAQ) şöbələrinin rəsmi nikah sənədi tələb olunur: "Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının fətvası ilə rəsmi nikahsız kəbin kəsilməsinə qadağa qoyub. Lakin bununla yanaşı, biz görürük ki, çoxlu sayda cütlüklərin rəsmi nikahı olmasa da, dini kəbinləri var. Əlbəttə ki, belə ailələrin hüquqlarını müdafiə etmək bir qədər çətinlik yaradır. Xüsusilə də erkən yaşda nikaha girən qızların hüquqlarının müdafiəsi çətin olur. Buna görə də İnzibati Xətalar Məcəlləsində rəsmi nikah sənədi olmadan kəbin kəsən mollalar üçün məsuliyyətin müəyyən edilməsi zərurəti yaranır. Nəzərinizə çatdırım ki, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyinin bütün formalarının ləğv edilməsi üzrə Komitəsinin ölkəmizlə bağlı tövsiyələrində də bu öz əksini tapıb".

Maraqlıdır, rəsmi izdivac sənədi olmadan, dini nikah necə kəsilir? Ümumiyyətlə, müğənnilər bu istəklərinə necə nail olurlar?

Media təmsilçisi Könül Aypara "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan qanunvericiliyinə əsasən ailə quran cütlük öncə rəsmi izdivaca daxil olmalıdır. Dövlət nikahı olarsa, həmin şəxslərin kəbini kəsilə bilər: "Dövlət kəbininə ehtiyac olmasaydı, məlum qanun qüvvəyə minməzdi. O zaman istənilən şəxs məsciddə dini kəbin kəsdirərdi. Qanunvericiliyin tələbinə uyğun olaraq, nikaha daxil olmaq istəyən şəxs öncə dövlət, daha sonra dini nikaha daxil ola bilər. Dövlət kəbininin vacib olmasının əhəmiyyətlərindən biri də nikahdan kənar uşaqların dünyaya gəlməsinin qarşısını almaqdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, bu gün bəzi müğənnilər gündəmdə qalmaq üçün müxtəlif üsullara əl atırlar: "Son zamanlar tanınmış şou-biznes nümayəndələrinin bəzisi hansısa iş adamı ilə dini izdivaca daxil olması ilə gündəmdə qalmaq istəyir. Bəllidir ki, həmin iş adamı ailəlidir, bu səbəbdən də müğənni ilə dini nikaha daxil olur. Müğənnilər də həmin şəxsin ailəli olduğunu deyə bilmədikləri üçün kəbin kağızlarını paylaşaraq filankəslə ailə qurduqlarını deyirlər. Gülməli məqam ondan ibarətdir ki, müğənnilər dini nikaha daxil olduqları şəxsin fotosunu tam şəkildə deyil, sol qolunu və ya sol əlindən tutduqları hissəni yayırlar. Bununla da müğənnilər "ərə getdikləri" şəxsin kimliyini gizlədirlər. Əvvəllər qadının fotosu tam şəkildə göstərilməzdi, ancaq indi əksinə olub. Müğənnilər həmin şəxsin fotosunu tam şəkildə ona görə paylaşmırlar ki, o adam kiminləsə ailəlidir və övladı var. Bir sözlə, müğənnilər "molla kəbini" adı altında ailə qurduqlarını bəyan edirlər. Təbii ki, bu cür evliliklərin müddəti qısa olur".

K.Aypara onu da vurğuladı ki, dövlət nikahı olmadan dini izdivaca razılıq verən mollalar qanun qarşısında cavab verməlidirlər: "Qanunsuz kəbin kəsən, özfəaliyyətlə məşğul olan mollalar nəzarətə götürülməlidir. Bu halın geniş yayılmaması üçün qanunvericiliyə bəzi dəyişikliklər əlavə olunmalıdır. Hansı din xadimi rəsmi nikah olmadan kəbin kəsərsə, o, qanunla cəzalandırılmalıdır. Yaxşı olar ki, dini kəbin də "ASAN xidmət" tərəfindən reallaşdırılsın. Yalnız bu yolla biabırçılıqların, ailə dağıtmaların qarşısı alınar".

İlahiyyatçı Cəmşid Əliyev bildirdi ki, şəriət nöqteyi-nəzərindən bu əqd - nikahın bağlanması tərəflərin bir-birinə məhrəm olmasını təmin etməkdir. Yəni dini ayinləri yerinə yetirən insanlar üçün bu mühümdür, əhəmiyyət kəsb edir. Amma başqaları üçün bir əhəmiyyəti yoxdur: "Şəriət kəbininin kəsilməsinin heç bir hüquqi qüvvəsi yoxdur. Yəni boşanma zamanı və yaxud tərəflərdən biri rəhmətə gedəndə ruhaninin, hətta rəsmi din xadiminin kəsdiyi şəriət nikahının heç bir hüquqi qüvvəsi yoxdur. Yəni onun əsasında heç bir pay bölgüsü aparılmır, vərəsəlik müəyyən olunmur, bunların hamısı rəsmi nikahdan asılıdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, rəsmi izdivac sənədi olmadan dini nikahın kəsilməsi düzgün deyil. Bunu edən dindar şəxslər həm qanunun tələblərini pozurlar, həm də günah işlədirlər.

***Günel CƏLİLOVA***

# "AzCake" şirkəti qoğaldan çıxan mıx xəbərinə necə reaksiya verdi...

**Son zamanlar istehlakçıların dükan və ya bazardan aldıqları yeyinti məhsulunun içərisindən xoşagəlməz nəsə çıxır. Gah bulkanın içərisindən şurup çıxır, gah tortun içərisində sellofan torba olur, ya da dəmir qırığı. Bu günlərdə vətəndaş Zabratda "Rahat market"in daxilində yerləşən "AzCake" şirkətindən qoğal alıb.**



Lakin qoğalı kəsən zaman onun içərisində mismar olduğunu aşkar edib. Gördüyü mənzərədən təəccüblənən vətəndaş yaşadığı olayı sosial şəbəkədə paylaşıb.

Məsələ ilə bağlı "AzCake" şirkəti ilə əlaqə saxladıq. Şirkətin satış və kommersiya məsələləri üzrə məsul şəxsi "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu halla bağlı vətəndaş onlara heç bir irad və şikayət bildirməyib: "Bu məsələ ilə bağlı vətəndaş ancaq sosial şəbəkələrdə yazıb. Bizə heç bir irad və şikayət bildirməyib. Bunun həqiqətə uyğun olub-olmaması vətəndaşın müraciəti əsasında araşdırılmalı və aldığı məhsul laboratoriyaya verilməlidir. Lakin biz heç cür vətəndaşla təmas qura bilməmişik. Əgər vətəndaş bizə müraciət etsə, biz istehsal prosesinin şəffaflığını, sanitar-gigiyenik qaydalara riayət olunduğunu elə onun özünə də göstərə bilərik. Lakin heç bir halda vətəndaş bizlə əlaqə yaratmayıb".

***"AzCake" şirkəti:** "Vətəndaş bizə müraciət edərsə, biz istehsal prosesinin şəffaflığını, sanitar-gigiyenik qaydalara riayət olunduğunu elə onun özünə də göstərə bilərik"*

***Eyyub Hüseynov:** "Çox sayda şirkət var ki, onlar antisanitar şəraitdə un məmulatları bişirib satır"*

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qeyd etdi ki, çox sayda şirkət var ki, onlar antisanitar şəraitdə un məmulatları bişirib satır: "Hətta bizdə çörəyin içindən müxtəlif əşyalar çıxmasını sübut edən nümunələr də var. Bunlara içindən sap, "bolt", siçan quyruğu çıxanları misal göstərə bilərəm".

Həmsöhbətimiz onu da vurğuladı ki, malın istehsalı zamanı onun tərkibinə kənar nəsə düşürsə, o zaman həmin sexdə sanitar istehsaldan danışmaq olmaz. Belə sexlər bağlanmalı, ya da müasir texnologiyalarla işləməlidirlər.

Ekspert xüsusi olaraq bildirdi ki, istehlakçılar belə halla üzləşərsə, ya AİB-ə, ya da həmin sexə müraciət edərək problemin həllində qismən kömək edə bilərlər: "Biz də bu zaman aidiyyəti dövlət orqanlarına müraciət edərək məsələnin həlli yolunda işlər görürük".

***Günel CƏLİLOVA***

# "Nar"ın rominq paketinə qoşul, səyahətdən zövq al!

**Xidmətlərini hər zaman abunəçilərinin tələblərinə uyğun şəkildə formalaşdıran "Nar", səyahətsevər abunəçiləri üçün sərfəli rominq paketləri təqdim etməkdədir.**

Rominq paketlərinə qoşulmaqla siz "WhatsApp"da pulsuz yazışa, sərfəli zəng və internetdən yararlanaraq səyahətinizi daha da rahatlaşdıra bilərsiniz. Təqdim olunan sərfəli şərtlər abunəçilərin də diqqətindən kənarda qalmayıb. Son bir ildə "Nar"ın rominq paketlərindən istifadə edənlərin sayı 66% artıb.

"Nar" abunəçilərinin istəklərini nəzərə alaraq, dörd müxtəlif rominq paketi təqdim edir. Belə ki, "Roaming 9" paketi abunəçilərə 500 MB internet, "Roaming 15" paketi 500 MB internet və 50 dəqiqə, "Roaming 18" paketi 1 GB internet, "Roaming 28" paketi isə 1 GB internet və 100 dəqiqə təklif edir. Xüsusilə qeyd etmək lazımdır ki,"Roaming 18" və "Roaming 28" paketlərində "WhatsApp" yazışmaları tamamilə pulsuzdur, yəni bu trafik sizin internet paketinizdən çıxılmayacaq.

Qeyd edək ki, rominq xidmətləri "Nar" abunəçiləri tərəfindən ən çox qonşu Türkiyə, Gürcüstan, Rusiya, eyni zamanda, Birləşmiş Ərəb Əmirlikləri və Ukraynada istifadə edilir.

Şifariş edilən paketdaxili internet və dəqiqənin balansını yoxlamaq üçün *777#20#YES kodunu yığmaq lazımdır. "Roaming 9", "Roaming 15" paketlərinin istifadə müddəti 5, "Roaming 18" və "Roaming 28" paketlərinin istifadə müddəti isə 15 gündür.

Rominq paketləri haqqında daha ətraflı məlumatı nar.az saytından və ya 777 nömrəsinə "R" göndərməklə əldə etmək olar.




"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7800-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

# "Təhsil avtobusu - Nəsimi" yay məktəbi "Bakcell" şirkətinin dəstəyi ilə reallaşıb



**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti "Azərbaycan üçün öyrət" təhsil proqramı çərçivəsində təşkil olunan "Təhsil avtobusu - Nəsimi" yay məktəbinin keçirilməsinə dəstək göstərib.**

"Nəsimi ili"nə həsr olunan "Təhsil avtobusu - Nəsimi" yay məktəbinin məqsədi şagirdlərin şəxsi inkişafına stimul vermək, həyata fərqli baxış və dünyagörüşünün formalaşmasına təsir etmək, onların dərsə marağının artmasına şərait yaratmaq və məktəblilərə Nəsimi yaradıcılığını tanıtmaqdır. İyulun 23-dən 29-dək davam edən "Təhsil avtobusu - Nəsimi" yay məktəbi Bakı-Qusar-Astara-Cocuq Mərcanlı-Qazax-Şamaxı-Bakı marşrutu üzrə səyahət edib. Yay məktəbi çərçivəsində bu bölgələrdəki məktəblərin akademik göstəriciləri zəif və orta olan 200-ə yaxın şagirdi hər biri 1 gün olmaqla təlimçi və ekspertlər tərəfindən keçirilən peşə, natiqlik, incəsənət, fərdi-inkişaf təlimləri və intellektual yarışlarda iştirak edib.

"Təhsil avtobusu - Nəsimi" yay məktəbi Təhsil Nazirliyinin təşkilatçılığı, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və "Kapital Bank"ın əsas dəstəyi, "Bakcell", "Paşa Həyat Sığorta" və "Optimal" şirkətlərinin dəstəyi və digər şirkət və təşkilatların tərəfdaşlığı ilə həyata keçirilib.

"Bakcell" şirkəti ənənəvi olaraq layihə ərzində iki min kilometrdən çox məsafə qət etmiş "təhsil avtobusu"nda yüksək sürətli internet bağlantısını da təmin edib.

Uşaqların inkişafı və təhsilini xüsusi diqqət mərkəzində saxlayan "Bakcell" şirkətinin həyata keçirdiyi Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində hər il yüzlərlə uşağın təhsilinə və sosial rifahının yaxşılaşdırılmasına töhfə verilir. Xatırladaq ki, ilin əvvəlində Təhsil Nazirliyi, "Bakcell" və "AzEduNet" şirkətləri arasında əməkdaşlıq protokolu imzalanıb. Bu əməkdaşlığın məqsədi ucqar kəndlərdə yerləşən 700-ə qədər ümumtəhsil müəssisəsində Azərbaycan Təhsil Şəbəkəsi vasitəsilə internet və şəbəkə xidmətlərinə çıxışın təmin edilməsidir. Əməkdaşlıq çərçivəsində hər ümumtəhsil müəssisəsi "Bakcell" şirkəti tərəfindən təmənnasız olaraq 3 il müddətində inzibatiidarəetmə məqsədləri üçün aylıq internet trafiki və data kartla təmin edilir.

№ 134 (4032) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

1 AVQUST 2019-cu il

www.baki-xeber.com

# 14.400 il әvvәl bişirilәn dünyanın әn köhnә çörәyi

**İordaniyada aparılan qazıntıların nәticәsindә dünyanın әn köhnә çörәyi ortaya çıxdı. Əkinçilikdәn daha köhnә dövrlәrә söykәnәn çörәklә birlikdә әkinçilikdәn әvvәl dә çörәk çıxarıldığı ortaya çıxdı.**

Araşdırmaçılar çörәyin 14.400 illik olduğunu tәyin etdi. "Deyerler.org" bildirir ki, arxeoloqlar "Şubayqa-1" adlı bir qazıntı sahәsindә çox maraqlı bir kәşf etdi. Aparılan qazıntı nәticәsindә yalnız dünyanın әn köhnә çörәyi tapılmadı. Bu çörәyin әkinçilik erasından әvvәl dövrlәrә aid olduğu da müәyyәn edildi. Kopenhagen Universitetindәn arxeoloq Tobias Rixterin rәhbәrliyi altında olan araşdırmaçı qrup, "Şubayqa-1" adlı qazıntı sahәsindә bir çox yemәk qalığına çatdı. Üzә çıxan yemәk qalıqları arasından 14.400 illik bir çörәk dә ortaya çıxdı. Bu da başqa bir sözlә çörәyin әkinçilikdәn 4.000 il әvvәl dә bişirildiyi mәnasını verir. Araşdırmaçı qrup, insanların cütçülüyә başlamadan әvvәl çörәk bişirdiklәrini, bәlkә dә, bunun ardından әkinçiliyә başlamış ola bilәcәklәrini ifadә etdi. Əkinçiliyә başladıqdan sonra da buğda, düyü, çovdar, yulaf, arpa, qarğıdalı kimi dәnli bitkilәr daha çox istifadә edildi.



## İnsan bәdәninin istiliyi ilә cihazları enerji ilә dolduran material hazırlanıb

"MİSiS" Milli Tәdqiqat Texnologiya Universitetinin mütәxәssislәri vә beynәlxalq alimlәr qrupu enerji doldurma qurğularının (bilәrzik) istehsalında tәtbiq edilә bilәn nanoborular әsasında termoelektrik polimer material hazırlayıblar. "Trend" xәbәr verir ki, termoelektrik materiallara istiliyi elektrik enerjisinә çevirә bilәn kimyәvi birlәşmәlәr vә ya metal әrintilәri aiddir. Ərintilәr әsasında hazırlanan mövcud termoelektriklәrin faydalı iş әmsalı aşağıdır (tәxminәn 10%) vә bir sıra çatışmazlıqlara malikdir. Alimlәr alternativ variant kimi otaq temperaturunda işlәyә bilәn polimer materiallarını nәzәrdәn keçirirlәr. Hәmin materialların elastikliyi sayәsindә onlara istәnilәn forma vermәk mümkündür, onlar toksik deyil vә aşağı istilikkeçirmә xassәsinә malikdirlәr. Bu da enerjinin çevrilmәsi vaxtı itkilәrin qarşısını alır.



## "Valkiriya" adlı robot Ayda vә Marsda astronavtlara baza qurmağa kömәk edәcәk

**ABŞ-ın Aeronavtika vә Kosmik Tәdqiqatlar Milli Agentliyinin (NASA) "Valkiriya" adlı robotu astronavtlara Ayda vә Marsda baza qurmağa kömәk edәcәk.**

"AZƏRTAC" bildirir ki, ilkin variantda düşmәnlәrә qarşı döyüşәn qәhrәman kimi hazırlanmış bu yarım-avtonom robot NASA mütәxәssislәri tәrәfindәn tәkmillәşdirilib. O, indi insanın gördüyü işlәri yerinә yetirir, çәtin maneәlәri tәhlükәsiz dәf edә bilir vә kәnardan komanda verәn operatorun nәzarәti altında verilәn tapşırıqları yerinә yetirir. NASA ümidvardır ki, "Valkiriya" robotundan Ay vә Marsın sәthindә bazalar yaradılmasında istifadә etmәk mümkün olacaq. Bundan başqa, onun "xidmәtlәrindәn" Yerdә dә - insanlar üçün әlçatmaz olan mәkanlarda faydalanmaq mümkündür. "Valkiriya" dünyanın әn mükәmmәl insanabәnzәr robotu hesab olunur. O, 2015-ci ildә NASA-nın özәl şirkәti tәrәfindәn layihәlәşdirilib vә 2016-cı ilin yazında Edinburq Universitetindә hazırlanıb. Robotun çәkisi 125 kiloqram, "boyu" isә 1,80 metrdir.

## Elan

Şәki şәhәr sakinlәri Mustafayev Simurden Hәsәn oğlunun vә Mustafayev Müşviq Hәsәn oğluna Daşınmaz әmlakın Dövlәt reyestrindәn verilmiş 0009330 nömrәli çıxarış itdiyi üçün etibarsız sayılır.

Mәmmәdov Taleh Əbdülәli oğluna DTXK tәrәfindәn verilmiş kadastr planı itdiyi üçün etibarsız sayılır (Ünvan: Qaradağ rayonu, Lökbatan qәsәbәsi).

Qulamәli Əli Abas oğlunun adına, Bakı şәhәri, Sabunçu rayonu, Maştağa qәsәbәsindә yerlәşәn №238 bağın 27 avqust 1987-ci il tarixli, № 3322 müqavilә itdiyi üçün etibarsız sayılır.

Mәmmәdova Zәrifә Mәmmәd Hüseyn qızının adına, Vişnyovka 2 qәsәbәsindә yerlәşәn 239 saylı bağa aid 20 iyul 2001-ci il tarixli, 5099 №-li müqavilә itdiyi üçün etibarsız sayılır.

## "WhatsApp"da bunu da etmәk mümkün olacaq - Yeni funksiya

**"WhatsApp"ın tәrtibatçıları messencerdә yeni funksiyaların istifadәyә verilmәsini elan ediblәr. "ICTnews" xәbәr verir ki, mütәxәssislәr indi messencerin "iOS" platformasında işlәyәn növbәti versiyası üçün bir sıra yenilәmәlәri sınaqdan keçirirlәr.**

Mәsәlәn, "WhatsApp" messencerindә çatlarda mesajların alınması ilә bağlı problemin mövcud olması barәdә bәrkidilmiş xәbәrdarlıq olacaq. Hәmçinin istifadәçilәr üçün qәbul edilmiş vә ya göndәrilmiş multimedia fayllarının sürәtli redaktәsi funksiyası әlçatan olacaq. Yeni funksiya vasitәsilә messencerdәn çıxmzdan şәkillәrә dәyişikliklәr etmәk mümkün olacaq. Bu yenilik, hәmçinin "Android" platformasının idarәetmәsi altında işlәyәn qurğu sahiblәrinә dә әlçatan olacaq. Bundan başqa, indi "WhatsApp" komandası "push" bildirişlәrdә sәsli mesajların ilkin dinlәnilmәsi imkanı üzәrindә işlәyir.





**Qoç** - Günün ilk yarısı intensiv dialoq, son mәlumatların vә informasiyaların mübadilәsi üçün әlverişlidir. İşgüzar sәfәr, ezamiyyәt istisna deyil. Çalışdığınız kollektivdә rәhbәrliklә açıq danışın.



**Buğa** - Yaxın әtrafınızdakı insanların dәstәyinә ehtiyacınız var. Maraqlı ideyalar vә kreativ fikirlәriniz az deyil. Hәmin ideyaları hәyata keçirmәyin, rifahınızı yüksәltmәyin yollarını düşünün.



**Əkizlәr** - Cari hadisәlәrin çәrçivәsindә darıxa bilәrsiniz. Gәrginlik vә narazılıq qәti addımlar atılmasını tәlәb edir. Mahiyyәt etibarilә sizә indi, sadәcә, "tәtiyin çәkilmәsi", qәfil etiraf, informasiya gәrәkdir.



**Xәrçәng** - Önәmli qәrarlar qәbul etmәzdәn әvvәl nüfuzlu insanların mövqelәrini araşdırın. Onların mәslәhәtlәrini qulaqardına vurmayın. Maddi rifahınızın inkişafında maraqlı insanları özünüzdәn kәnarlaşdırmayın.



**Şir** - Konstruktiv dialoq sayәsindә mәqsәdlәrә çata bilәrsiniz. Uğurlar sizi gözlәyir. Ən müxtәlif insanlarla ünsiyyәtdә radikal olmayın. Mövqelәrinizi möhkәmlәtmәk üçün bütün addımları atın.



**Qız** - Tapşırıqları qulaqardına vurmayın, sәlisliyә can atın. Əsas diqqәti bilavasitә sәlahiyyәtlәrin yerinә yetirilmәsinә yönәldin. Hadisәlәrlә zәngin, aktiv, parlaq gündür. Passiv olmayın, yeniliklәrә can atın.



**Tәrәzi** - Aktiv, mütәhәrrik, çevik olun. Gördüyünüz işә laqeyd yanaşmayın. İşdә rәhbәrliyin tapşırıq vә göstәrişlәrini vaxtında yerinә yetirin. Günün ikinci yarısında yaxın әtrafınızdakı insanlarla tәmaslarda subordinasiyanı pozmayın.



**Əqrәb** - Özünüzü sәrbәst hiss etsәniz, mәqsәdә doğru daha sürәtlә irәlilәyә bilәrsiniz. Ünsiyyәtә açıq olun, yeni tanışlıq imkanlarından yararlanın. Xidmәti yazışma mәhsuldar olacaq. Maraqlandığınız insanla tәkbәtәk danışın.



**Oxatan** - Gün әrzindә yaşanacaq hadisәlәr sizdәn aktiv olmağı tәlәb edir. Hәyatınızda bundan sonra da әvvәlki tәki qalmasının mümkünsüz olduğu nәsnәlәrә dәyişikliklәr etmәk gәrәkdir.



**Oğlaq** - Pulunuzun qәdrini bilin, bәdxәrclik etmәyin. Maliyyә vәsaitinizlә mәnasız risklәr etmәyin. Xәrclәr artsa da, gәlirlәr dәyişmir. Borcları vaxtında qaytarın, kredit ödәnişlәrini gecikdirmәyin.



**Dolça** - Uğurlu, yaxşı gündür. Kommunikasiyaların effektiv olmasına çalışın. İnsan naturasının incәliklәrinә bәlәd olmağa can atın. Danışıqlarda vә müzakirәlәrdә qarşı tәrәfi haqlı olduğunuza inandırın.



**Balıqlar** - Dәyәrlәr vә hisslәrdә konkretlәşdirmәyә nail olmaq üçnü önәmli görüş, ya da müzakirәyә ehtiyac var. Özünüzlә bağlı xoşagәlmәz etiraf, habelә kiminsә rahatlığınızı vә işlәrinizi pozmağa çalışması istisna deyil.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Qaranlıqda parıldayan kiçik bir akula növü...

**Ümumiyyәtlә, böyük, qorxunc, hiylәgәrcә ovlayan bir canlı növü olan akula ailәsinin yeni üzvlәri olduqca tәәccüblüdür.**

Bu növün fәrdlәri olduqca kiçikdir, qaranlıqda parıldayır vә zahirәn çox sevimli şәkli var. "Deyerler.org" bildirir ki, akulalarının ovlanması ümumiyyәtlә hiylәgәrcә izlәmәyә vә ovlarının qoxusunu izlәmәklә olur. Yeni kәşf edilәn bir növ isә bu hala çox uyğun gәlmir. Bu kiçik ölçülü növ, qaranlıqda parıldayaraq ovunu özünә çәkir. Tәxminәn 14-15 sm boylarındakı Amerika cib akulası, ilk olaraq Meksika körfәzindә göründü. Tulan Universitetinin işlәri әsnasında olan bu yeni növ olduqca diqqәt çәkdi. Daha әvvәl 2010-cu ildә bölgәdә yaşayan bir balina növünü araşdıran araşdırmaçılar, gәnc bir erkәk akula tapmışdı. O, canlı, bu növә aid olmasa da, daha qaranlıq sularda kәşf edilmişdi. Növün tәkrar tapılması isә 2013-cü ildә Milli Okean vә Atmosfer İdarәsi (NOAA) araşdırmaçısı Mark Qreysin etdiyi işlәrdә oldu. Araşdırmaçı, etdiyi şәrhdә bu canlının tarix boyunca yazılan yalnız 2 cib akula olduğunu söylәdi. Digәr cib akula, 1979-cu ildә Sakit okeanın şәrqindә tapılmışdı. Qreys hәr iki növün çox nadir olduğunu söylәdi.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

**Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.**

*Sifariş: №2514* *Tiraj: 3050*

**Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.**

**Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.**